Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

29
MART
2019-cu il
№ 55 (3953)
Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# VYANA GÖRÜŞÜ ASTANASINDA PAŞİNYAN YENİ POZUCU TƏXRİBATA ƏL ATDI - «GÜNDƏLİKSİZ SÖHBƏT» FORMATI...

■ səh. 8 ■

Vyana görüşü Qarabağ məsələsinin çözümündə həlledici əhəmiyyət daşıya bilər, əgər Ermənistan... ■ səh. 9 ■

NATO-nun Qafqaz strategiyası və Azərbaycanın neytral mövqeyi... ■ səh. 7 ■

Teleefirimizdə bənzərsiz AzTV... ■ səh. 4 ■

Ermənistan ordusu daha dərin xaosa yuvarlanır... ■ səh. 10 ■

Unikal Azərbaycan sosial təcrübəsi - uşaqların müdafiəsinə xidmət edən 10-dan çox müavinət var ■ səh. 11 ■

Bakını restoran tüstüsünə boğan sahibkarlar təzə bəhanə tapıb, Ekologiya Nazirliyinin məmurları isə üzgörənlik edir... ■ səh. 13 ■

Qida Təhlükəsizliyi Agentliyi nəhayət tərpəndi - dönər bişirən çirkli oğlanları bir daha görəcəyikmi... ■ səh. 12 ■

Azərbaycanda ilk - riyaziyyat üzrə beynəlxalq olimpiada... ■ səh. 15 ■



■ səh. 3 ■

## Prezident yanğından zərərdidə sahibkarlara dövlət dəstəyinin təkmil mexanizmini verdi...

*...İqtisadiyyat Nazirliyi bir-bir görüşsün, Maliyyə Nazirliyi ilkin vəsait ayırsın, digər qurumlar yanmış malların qiymətini aydınlaşdırsın, komissiya yaradılsın, ticarət mərkəzləri ciddi nəzarətə alınsın, sahibkarlara müvəqqəti başqa mərkəzlərdə iş verilsin...*



### «Diqlas» yanğınından zərər çəkənlərə Prezidentin borc olmayan jesti və bundan kimlərinsə sui-istifadə ehtimalları...

■ səh. 4 ■

### Müxalif radikalların «mitinq günü» dartışması yenidən başladı - Cəmi bir gün fərqə görə Müsavatla Milli Şuranın qırğını...

■ səh. 5 ■



### Ermənistan ədliyyə nazirinin həyatı azərbaycanlı girova görə təhlükə altında...

■ səh. 6 ■

■ səh. 8 ■

Vyana görüşü də Qarabağ münaqişəsinin həllində real mərhələ açmasa... Azərbaycanın zorən çıxış yolları müzakirədə...



■ səh. 6 ■

Litva SSRİ müdafiə naziri Yazovun cəzasını kəsdi, qaldıq biz... - 20 Yanvarın cəzası...



■ səh. 5 ■

Azərbaycan Türkmənistan üçün Avropaya qaz yolunu açsa da... ABŞ eksperti başqa bir maneədən danışdı...



■ səh. 11 ■

Dünya Bankı Azərbaycanın qürurverici yeni statusunu bəyan etdi - yoxsul ölkələrə sponsorluq...



■ səh. 12 ■

Nazirliyin növbəti dinamik layihəsi - orta məktəb müəllimləri ilə daimi əmək müqaviləsi prosesi başladı...





## Prezident "Diqlas" ticarət mərkəzində yanğınla əlaqədar Komissiyanın yaradılması haqqında Sərəncam imzaladı

**Martın 28-də Prezident İlham Əliyev Bakının Nizami rayonu ərazisində "Diqlas" ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar Komissiyanın yaradılması haqqında Sərəncam imzalayıb.**

Baki-xeber.com-un xəbərinə görə, Sərəncamda martın 26-da "Diqlas" ticarət mərkəzində baş vermiş yanğın nəticəsində sahibkarlara külli miqdarda ziyan dəydiyi qeyd olunub.

Hadisənin səbəblərini araşdırmaq və nəticələrini aradan qaldırmaq məqsədilə Nazirlər Kabinetinə "Diqlas" ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar Komissiyanın yaradılması barədə tapşırıq verilib. Nazirlər Kabinetinə, həmçinin, görülmüş işlər haqqında mütəmadi olaraq Azərbaycan Prezidentinə məlumat vermək tapşırılıb.

## Nərimanov rayonunda avtomobil yollarının yenidən qurulmasına 6,3 milyon manat ayrılıb

**Prezident İlham Əliyev Bakı şəhərinin Nərimanov rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamda deyilir ki, Bakı şəhərinin Nərimanov rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 6,3 milyon (altı milyon üç yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

Maliyyə Nazirliyi göstərilən məbləğdə maliyyələşməni təmin etməli, Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

## Ukrayna öz vətəndaşlarına Azərbaycanın işğal olunmuş ərazilərinə səfəri qadağan etdi

**Azərbaycanın Ukraynadakı səfirliyinin səyləri nəticəsində Ukrayna Xarici İşlər Nazirliyinin (XİN) rəsmi saytında Ukrayna vətəndaşları üçün Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə giriş qaydaları ilə bağlı məlumat yerləşdirilib.**



"Trend"in məlumatına görə, xəbərdarlıq məlumatında Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf yeddi rayonuna (Ağdam, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli) qanunsuz səfərlərin qəti qadağan olunduğu vurğulanır. Bildirilir ki, həmin ərazilərə yalnız Azərbaycanın rəsmi qurumlarının icazəsi ilə səfər etmək mümkündür. Əks halda, qanunu pozan ukraynalılar Azərbaycan üçün "persona non-qrata" elan ediləcək və ölkəyə buraxılmayacaq.

Bundan başqa, Ukrayna XİN bəyan edir ki, Azərbaycan hökumətinin icazəsi olmadan qeyd olunan ərazilərdə hər hansı hüquqi və fiziki şəxsin kommersiya işi ilə məşğul olması da qəti qadağandır.

# Nazir "Diqlas"da yanğının nəticələrinin aradan qaldırılmasında 400-dən çox polisin ilkin zəruri fəaliyyətindən danışdı... Komissiyada DİN əməkdaşları da olacaq...

**"Diqlas" ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar yaradılan komissiyanın tərkibində Daxili İşlər Nazirliyinin (DİN) əməkdaşları da olacaq.**



"Trend"in məlumatına görə, bunu Bakının Nizami rayonundakı ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar martın 28-də Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən müşavirədə daxili işlər naziri Ramil Usubov deyib.

R.Usubov məlumat verib ki, yanğın baş verdikdən dərhal sonra Daxili İşlər Nazirliyinin və Baş Polis İdarəsinin rəhbərliyi və şəxsi heyəti hadisə yerinə gedib və qarşıda duran vəzifələrə bağlı operativ tədbirlər görüblər. Belə ki, yol polisi əməkdaşları yanğınsöndürənlərin hadisə yerinə vaxtında və maneəsiz çatmaları üçün lazımi şərait yaradıb, 400 nəfərdən çox polis əməkdaşı hadisə yerində təhlükəsizlik tədbirlərinin təmin olunmasına cəlb edilib, əhalinin oradan uzaqlaşdırılması, nəqliyyatın hərəkətinin məhdudlaşdırılması ilə bağlı zəruri tədbirlər görülüb.

Nazir yanğının baş verməsi ilə bağlı müşahidə kameralarının qeydlərinin müvafiq qurumlara təqdim olunduğunu bildirib. Dövlət başçısının tapşırığı ilə yaradılan komissiyanın tərkibində Daxili İşlər Nazirliyi əməkdaşlarının da təmsil olunacağını vurğulayan nazir tapşırıqların yüksək səviyyədə həyata keçiriləcəyini qeyd edib.

# Kəmaləddin Heydərov binaların alkapona bükülməsinin yanğın anında çox təhlükəli olduğunu dedi

**"Diqlas" ticarət mərkəzində malların anbarlarda düzgün yerləşdirilməməsi və binanın alkaponla üzlənməsi yanğının daha da şiddətlənməsinə səbəb olub.**



"Trend"in məlumatına görə, bunu Bakının Nizami rayonundakı ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar martın 28-də Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilən müşavirədə fövqəladə hallar naziri Kəmaləddin Heydərov deyib.

Nazir yanğının başvermə səbəbləri, əhatə dairəsi və həyata keçirilən təxirəsalınmaz tədbirlər barədə Prezident İlham Əliyevə məlumat verib. O bildirib ki, hadisədən dərhal sonra operativ olaraq yanğınsöndürənlər hadisə yerinə yaxınlaşıb və ilkin tədbirlər həyata keçirilib.

Yanğının mənbəyinin ticarət mərkəzindən kənarda yerləşən və qanunsuz inşa olunan dönərxanadan başladığını deyən K.Heydərov qeyd edib ki, yanğının başvermə anı Daxili İşlər Nazirliyinin müşahidə kameralarında da əks olunub. Yanğının söndürülməsinə 35 yanğınsöndürən maşının və 3 helikopterin cəlb olunduğunu deyən nazir bildirib ki, ticarət mərkəzində yanğın təhlükəsizliyi qaydalarına indiyədək əməl olunmayıb. K.Heydərov deyib ki, Fövqəladə Hallar Nazirliyi tərəfindən 2015-ci ildən başlayaraq ticarət mərkəzinə və rayon icra hakimiyyətinə müvafiq müraciətlərin olunmasına baxmayaraq, burada yanğın təhlükəsizliyi və digər təhlükəsizlik tədbirləri görülməyib və bu məqsədlə tələb olunan hidrantlar qoyulmayıb. Malların anbarlarda düzgün yerləşdirilməməsi və binanın alkaponla üzlənməsi yanğının daha da şiddətlənməsinə səbəb olub.

Nazir hadisənin fəsadlarının aradan qaldırılması və yanğının ətraf binalara keçməməsi üçün bütün lazımi tədbirlərin operativ görüldüyünü vurğulayıb. O, hadisənin başvermə səbəblərinin araşdırılması məqsədilə qanunvericiliyə uyğun olaraq zəruri tədbirlərin görüləcəyini və əldə edilən ilkin materialları komissiyaya təqdim ediləcəyini bildirib.

# Problemli kreditlərlə bağlı kompensasiyaların verilmə vaxtı açıqlandı

**Prezident İlham Əliyev tərəfindən bu il fevralın 28-də imzalanan "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" fərman çərçivəsində kompensasiyaların ödənilməsinə aprelin sonunadək başlanması planlaşdırılır.**

"Trend"in məlumatına görə, bunu Maliyyə Bazarlarına Nəzarət Palatasının mətbuat katibi Elşən Allahverdiyev fiziki şəxslərin problemli kreditləri üzrə kompensasiya ödənişi və restrukturizasiya ilə bağlı portalın təqdimatı zamanı deyib.

Palatanın Hüquqi təminat idarəsinin rəisi Tural Feyzullayev isə bildirib ki, vətəndaş mövcud bankın müştərisidirsə, ona təzminatla bağlı bankdan bildiriş gələcək:




"Amma vətəndaş bank olmayan kredit təşkilatının və ya ləğvolunma prosesindəki bankın müştərisidirsə, ona poçt vasitəsilə bildiriş gələcək".

Qeyd edək ki, Maliyyə Bazarlarına Nəzarət Palatasında (MBNP) fiziki şəxslərin problemli kreditləri üzrə kompensasiya ödənişi və restrukturizasiya ilə bağlı portalın təqdimatı keçirilib.

## Sumqayıt Metaləritmə zavodunda partlayış nəticəsində ölən var... Şəhər Prokurorluğu məlumat yaydı

**Martın 22-də Sumqayıt şəhəri ərazisində yerləşən "STP-3 Metaləritmə" zavodunda partlayış baş verib.**

Sumqayıt Şəhər Prokurorluğunun olayla bağlı yaydığı məlumatda deyilir ki, dərhal hadisə yerinə Sumqayıt şəhər polis və prokurorluq əməkdaşlarının iştirakı ilə baxış keçirilib və digər təxirəsalınmaz zəruri prosessual hərəkətlər yerinə yetirilib. İlkin araşdırmalarla müəyyən edilib ki, partlayış həmin gün saat 13 radələrində zavodun poladəritmə sexində metalın əriyib sobanın soyutma radiatoruna toxunması nəticəsində baş verib. Hadisə nəticəsində fəhlələr Mürşüd Məmmədov, Vüqar Cəlilov, Ceyhun Qaraşov və sex rəisi Minyaz Seydəliyev müxtəlif dərəcəli yanıq xəsarətləri alaraq xəstəxanaya yerləşdirilib. Minyaz Seydəliyev martın 27-də müalicə olunduğu xəstəxanada vəfat edib. Faktla bağlı Sumqayıt Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 162.2-ci (əmək mühafizəsi qaydalarını pozma ehtiyatsızlıqdan insan ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb və müvafiq ekspertizalar təyin edilib. Hadisənin baş vermə səbəbləri və təqsirkar şəxslərin müəyyən edilib cinayət məsuliyyətinə cəlb olunması istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

**Aydın Quliyev respublikanın əməkdar jurnalisti Tahir Aydınoğluna atası Aydın Rüstəmovun vəfatı ilə əlaqədar üz vermiş kədərə qəlbən şərik olduğunu bildirir və dərin hüznlə başsağlığı verir.**
**Allah rəhmət eləsin!**



# Prezident yanğından zərərdidə sahibkarlara dövlət dəstəyinin təkmil mexanizmini verdi...

*...İqtisadiyyat Nazirliyi bir-bir görüşsün, Maliyyə Nazirliyi ilkin vəsait ayırsın, digər qurumlar yanmış malların qiymətini aydınlaşdırsın, komissiya yaradılsın, ticarət mərkəzləri ciddi nəzarətə alınsın, sahibkarlara müvəqqəti başqa mərkəzlərdə iş verilsin...*

**Prezident İlham Əliyevin sədrliyi ilə martın 28-də Bakının Nizami rayonundakı ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar müşavirə keçirilib. Dövlət başçısı müşavirədə çıxış edərək deyib ki, xoşbəxtlikdən, yanğında insan itkisi olmayıb:**

-Ancaq o ticarət mərkəzində çalışan insanlara maddi ziyan dəymişdir. Yanğının səbəbləri araşdırılır, bu gün ilkin məlumat veriləcəkdir və əminəm ki, tam araşdırılacaqdır. Eyni zamanda, biz sahibkarların problemlərini həll etməliyik. Onlar öz iş yerlərini, öz əmlakını itiriblər. Onlara maddi ziyan dəyib. Bəziləri borc alıb və orada malları satışa çıxarıblar. Ona görə, əlbəttə ki, biz bu insanlara dövlət olaraq öz dəstəyimizi göstərəcəyik.

…Belə hadisələr baş verir. Əlbəttə ki, səbəblər tam araşdırılmalıdır və operativ olaraq dövlət sahibkarlara öz maddi yardımını göstərməlidir. İqtisadiyyat Nazirliyi ticarət mərkəzində çalışan sahibkarlarla bir-bir görüşməlidir, onların problemlərini dinləməlidir və onlara dəstək göstərməlidir. Maliyyə Nazirliyi operativ olaraq ilkin maliyyə vəsaiti ayırmalıdır ki, sahibkarlara bu vəsaitin verilməsi təmin edilsin. Bununla bərabər, İqtisadiyyat Nazirliyi, Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi yanmış malların qiymətini sahibkarlarla birlikdə araşdırmalıdır, aydınlaşdırmalıdır və bizdə bu məsələ ilə bağlı dəqiq məlumat olmalıdır.

**"İnkişaf etmiş ölkələrdə belə hadisələr baş verdikdə bütün maliyyə yükünü sığorta şirkətləri öz üzərinə götürür…"**

-Adətən inkişaf etmiş ölkələrdə belə hadisələr baş verdikdə burada bütün maliyyə yükünü sığorta şirkətləri öz üzərinə götürür, bütün mallar sığortalanır. Ancaq əfsuslar olsun ki, Azərbaycanda sığorta sahəsində boşluqlar var və bir çox hallarda biz bunu görürük. Misal üçün, bu yaxınlarda Şamaxı, İsmayıllı, Ağsu rayonlarında baş vermiş zəlzələ nəticəsində minlərlə evə ziyan dəyib və heç bir ev sığortalanmayıb. Təbii ki, dövlət öz dəstəyini göstərir və göstərməlidir. Artıq evlərin tikintisi başlamışdır və bu ayın əvvəlində birinci evlərin vətəndaşlara təqdimetmə mərasimi keçirilmişdir. Bütövlükdə, sahibkarlara məsləhət görülür ki, onlar öz əmlakını sığortalatsınlar. Belə olan halda tam əmin ola bilərlər ki, bədbəxt hadisə baş verdikdə onların əmlakı batmayacaq.

Azərbaycan çox güclü sosial siyasət aparır. Bu siyasət özünü müxtəlif sahələrdə büruzə verir. Bildiyiniz kimi, bu ilin əvvəlində çox ciddi və böyük sosial paket təsdiqləndi. Sosial təşəbbüslər nəticəsində 3 milyondan çox insan bu proqramla əhatə olunur. Deyə bilərəm ki, dünyada belə bir təşəbbüsün bənzəri yoxdur. Təbii fəlakət - zəlzələ, daşqın vaxtı hər zaman vətəndaşın yanında ilk olan dövlətdir. Bu bizim siyasətimizdir, biz bu siyasətə sadiqik və bunu bütün sahələrdə aparacağıq. Ona görə, baş vermiş yanğınla bağlı, əlbəttə ki, ilk növbədə, biz burada əziyyət çəkən, maddi ziyan dəyən sahibkarların vəziyyətini başa düşməliyik, onlara kömək göstərməliyik və göstərəcəyik.

**Prezident sahibkarların işlə təmin olunmasını da prioritet kimi göstərdi**

-Məsələni tam araşdırıb təklifləri vermək üçün komissiya yaradılacaq. Əlbəttə ki, komissiya bir müddət işləyəcək. Ancaq biz operativ olaraq sahibkarlara ilkin mərhələdə maddi dəstək göstərməliyik ki, onlar bu vəziyyətdən çıxa bilsinlər. Gələcəkdə onları işlə təmin etmək üçün müvafiq addımlar atılacaq. O ki qaldı, ticarət mərkəzinin sahibkarlarının fəaliyyətinə, əlbəttə ki, onlar dövlət tərəfindən sahibkarlara veriləcək məbləğin ödənilməsini tam təmin etməlidirlər və edəcəklər. Ancaq nəzərə alsaq ki, biz istəyirik məsələ tezliklə öz həllini tapsın, bu məqsədlə, yenə də deyidiyim kimi, dövlət dərhal öz dəstəyini göstərməlidir.

Fövqəladə hallar naziri Kəmaləddin Heydərov, baş prokuror Zakir Qaralov, daxili işlər naziri Ramil Usubov, iqtisadiyyat naziri Şahin Mustafayev, Nizami Rayon İcra Hakimiyyətinin başçısı Arif Qasımov mövzu ilə bağlı məruzə etdikdən sonra müşavirəyə yekun vuran Prezident İlham Əliyev deyib ki, ilk növbədə, yanğının səbəbləri tam araşdırılmalıdır:

-İlkin versiyalar var. Kamera müşahidəsi də deməyə əsas verir ki, yanğın haradan başlayıb. Bunu nəzərə alaraq yekun rəy, əlbəttə ki, təqdim olunacaq. Eyni zamanda, bütün ticarət mərkəzlərində ciddi təftiş işləri aparılmalıdır, təhlükəsizlik tədbirləri gücləndirilməlidir. Fövqəladə Hallar Nazirliyi və digər aidiyyəti qurumlar, Bakı Şəhər İcra Hakimiyyəti, rayon, şəhər icra hakimiyyətləri bu işlərlə çox ciddi məşğul olmalıdırlar. Təhlükəsizliklə bağlı olan bütün məsələlər ən yüksək standartlarda təmin edilməlidir.

**"Sahibkarlara bir daha demək istəyirəm ki, dövlət onların yanında olacaq"**

-Sahibkarlara gəldikdə, bir daha demək istəyirəm ki, dövlət onların yanında olacaq. Onlara artıq bu məlumat verildi. Maliyyə dəstəyinin göstərilməsi operativ qaydada təşkil edilməlidir və müvafiq göstəriş verilib. Eyni zamanda, burada da qeyd olunduğu kimi, onlara güzəştli şərtlərlə kreditlər verilməlidir, dəymiş ziyan dəqiq hesablanmalıdır. Onların bu gün fəaliyyətdə olan digər ticarət mərkəzlərində yerləşdirilməsi ilə bağlı tədbirlər görülməlidir ki, işsiz qalmasınlar.

Beləliklə, hesab edirəm, görülmüş və görüləcək tədbirlər nəticəsində sahibkarlar bir daha görəcəklər ki, dövlət hər zaman onları dəstəkləyir. Azərbaycanda sahibkarlığın inkişafı geniş vüsət alıb və ölkəmizin gələcək, uzunmüddətli, dayanıqlı inkişafı böyük dərəcədə sahibkarların fəaliyyəti ilə bağlıdır. Azərbaycanda indi sahibkarlar sinfi yaradılıb. Sahibkarlar müxtəlif sahələrdə - həm istehsalda, xidmət və ticarət sektorlarında çox fəal işləyirlər. Əlbəttə ki, dövlət onlara həm siyasi dəstək, həm də maliyyə dəstəyi verir. Bildiyiniz kimi, güzəştli şərtlərlə 2 milyard manatdan çox kreditlər verilmişdir. Ağır günlərdə, bədbəxt hadisə baş verdikdə dövlət hər zaman onların yanındadır və onların yanında olacaqdır.

***Baki-xeber.com***

**Məlum olduğu kimi, martın 26-da Nizami rayonunda yerləşən "Diqlas" ticarət mərkəzi tam şəkildə yanıb. Yanğın nəticəsində bina tamamilə yararsız hala düşüb. Hətta binanın dəmir konstruksiyaları belə, deformasiyaya uğrayıb. Adıçəkilən ticarət mərkəzində yanğın söndürülsə də, fəsadları hələ uzun müddət qalmaqda davam edəcək.**

# "Diqlas" yanğınından zərər çəkənlərə Prezidentin borc olmayan jesti və bundan kimlərinsə sui-istifadə ehtimalları...



*"...səsləndirdikləri rəqəm əsasında maliyyə köməkliyi..."*

## Pərviz Heydərov: *"Sahibkarlara dəyən ziyanın hesablanması üçün xüsusi komissiya yaradılacaq"*

Çünki həmin məkanda obyektləri olan sahibkarlar yanğın nəticəsində dükanlardan salamat mal çıxara bilməyiblər. Nəticədə sahibkarlara maddi ziyan dəyib. Sahibkarlar pərişan haldadırlar. Onlar qeyd edirlər ki, binada ələ gələsi heç bir şey qalmayıb, çünki bütün mallar yanaraq kül olub.

Bu səbəbdən də onlar üzləşdikləri vəziyyətlə bağlı maliyyə yardımı ödənilməsini tələb edirlər.

Ancaq "Diqlas" ticarət mərkəzində sahibkarlıqla məşğul olan şəxslərin obyektləri sığortalanmadığı üçün, onlar sığorta pulu ala bilmirlər. Sığorta şirkərləri qeyd edirlər ki, göstərilən ünvanda dükanı olan sahibkarlar nə dükanı, nə də satışa çıxardıqları malları sığorta etmədikləri üçün, onlara ödəniş verilməyəcək. Belə bir vəziyyətdə çarəsiz halda qalan sahibkarların imdadına Prezident İlham Əliyev yetişdi. Dövlət başçısının tapşırığı ilə "Diqlas" ticarət mərkəzindəki yanğına görə ziyan çəkən sahibkarlara maliyyə yardımı ödəniləcək.

Məlumat üçün bildirək ki, Bakının Nizami rayonu ərazisindəki "Diqlas" ticarət mərkəzində baş vermiş yanğın nəticəsində zərərçəkən sahibkarlarla növbəti görüş keçirilib. Nizami Rayon İcra Hakimiyyətinin Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Firudin Cabbarov "Trend"ə bildirib ki, görüşdə Prezident Administrasiyasının Regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdir müavini Hüseyn Mövsümov, Nizami Rayon İcra Hakimiyyətinin başçısı Arif Qasımov və digər rəsmi şəxslər iştirak ediblər. Onun sözlərinə görə, görüşdə qeyd olunub ki, yanğın hadisəsi ilə əlaqədar Prezident İlham Əliyev tapşırıq verib: "Prezidentin tapşırığı ilə hər bir vətəndaşa dəyən ziyana görə yardım ödəniləcək. Bunun üçün müvafiq komissiya yaradılacaq və icarədarlara dəyən ziyan obyektiv, ədalətli şəkildə hesablanacaq. Yaradılmış komissiyaya zərərçəkən sahibkarlar da daxil olacaq".

Martın 27-də icra başçısı ilə görüşən sahibkarlar yüksək məbləğdə ziyana düşdüklərini bildirmişdilər. Malları yanan sahibkarlardan biri deyir ki, guya onun "1 milyonluq", başqa birisi isə qeyd edir ki, "500 minlik" malı yanıb. Sahibkarların səsləndirdikləri rəqəm inandırıcı görünmür. Onlar Prezidentin humanizmindən istifadə etmək istəyirlər. İ.Əliyev malları yanan sahibkarlara xoş niyyət göstərib, üzləşdikləri ziyana görə maliyyə yardımı barədə tapşırıq verib. Vəziyyətdən istifadə edənlər isə təxminən 5000-10000 manatlıq ziyanını milyon manatla kompensasiya etmək istəyirlər. Ancaq bu düzgün deyil.

Maraqlıdır, sahibkarların nə qədər zərərlə üzləşdiyi necə müəyyən olunacaq? Hansı mexanizm əsasında sahibkarların zərərinin məbləği tam şəkildə bəlli olacaq?

Məsələ ilə bağlı fikir bildirən iqtisadçı-ekspert Pərviz Heydərov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, "Diqlas" ticarət mərkəzində yanğın nəticəsində sahibkarlıqla məşğul olanlar müəyyən məbləğdə ziyanla üzləşiblər. Onların zərərinin kompensasiya olunması üçün Prezident humanist tapşırıq verib: "Məlum məsələ ilə bağlı müşavirə keçirilib. Müşavirədə dövlət orqanlarının rəhbərləri iştirak ediblər. Sahibkarlara dəyən ziyanın hesablanması üçün xüsusi komissiya yaradılacaq. Onu da bildirim ki, zərərin tam şəkildə hesablanması qısa müddət ərzində baş tutmayacaq. Bu, müəyyən vaxt tələb edir. Ziyanın məbləği müəyyən olunan zaman qeydiyyat məsələsi də araşdırılacaq. Sahibkarlar bu gün müxtəlif rəqəmlər səsləndirirlər. Ancaq onların səsləndirdikləri rəqəm əsasında maliyyə köməkliyi həyata keçirilməyəcək. Bu keçirilə də bilməz. Komissiyanın yekun rəyi əsasında sahibkarlara maliyyə yardımı ödəniləcək".

Həmsöhbətimiz onu da bildirdi ki, "Diqlas" ticarət mərkəzində sahibkarlıqla məşğul olan bütün ticarətçilərin malları yanmayıb: "Görüntülər zamanı bəlli olur ki, heç də sahibkarların hamısının malları yanaraq kül olmayıb. Elə sahibkar var ki, onun malları yanmayıb. Ancaq bəzilərinin malları isə tam şəkildə yanaraq kül olub. Bu kimi faktları komissiya araşdırandan sonra sahibkarlara maliyyə yardımı ödəniləcək".

*Günel CƏLİLOVA*

---

**Televiziya, sözün həqiqi mənasında, cəmiyyətin güzgüsünə çevrilməlidir. Lakin çox az sayda televiziya kanalı bu missiyanı yerinə yetirə bilir, qalanları isə ucuz və bayağı şouların əsirinə çevriliblər. Təəssüf ki, bu gün saxta reytinq cədvəllərində ön cərgəyə çıxarılan telekanallar var və o kanallar ictimaiyyətin bədii-estetik zövqünün, ictimai şüurunun formalaşmasında heç bir rola malik deyil.**

# Teleefirimizdə bənzərsiz AzTV...

*"Xəbər yayımı məsələsində də Azərbaycan Televiziyası heç bir telekanala uduzmur"*

## Qabil Hüseynli: *"Açığını deyək, Azərbaycan Televiziyasında qeyri-ciddi, zövqümüzü korlayan, reytinq arxasınca qaçan verilişlər yox dərəcəsindədir"*

Ancaq elə televiziyalar da var ki, onlar birbaşa tamaşaçının bədii-estetik düşüncəsinin, zövqünün formalaşmasında, tariximizin, milli dövlətçilik ideologiyamızın təbliğində əhəmiyyətli proqramlar hazırlayır. Ölkəmizin ilk telekanalı olan və uzun illər rəqibsiz fəaliyyət göstərən Azərbaycan Televiziyası bu mənada diqqəti çəkir. Doğrudur, bəzən bu televiziyanı tənqid edənlər, hətta bəzən onun başqa telekanallardan geri qaldığı iddiasında bulunanlar da tapılır. Lakin buna baxmayaraq, Azərbaycan Televiziyası öz simasını qoruya bilir. Bu televiziyanın həyatında baş verən dəyişikliklər televiziyanı yenidən gündəmə gətirib və onunla bağlı yeni müzakirələr açılması üçün şərait yaradıb.

Azərbaycan Televiziyasının bugünkü vəziyyətini necə qiymətləndirirsiniz?

Tanınmış politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə bildirdi ki, hazırda Azərbaycan Televiziyası yerli telekanallar arasında liderdir və öz liderliyini həyata keçirdiyi uğurlu yaradıcılıq layihələri ilə hər zaman təsdiqləyir. "Mən uzun illər Azərbaycan Televiziyasında siyasi proqramlar üzrə aparıcı olmuşam, bir politoloq, siyasi icmalçı kimi 25 ilə yaxın verilişlər aparmışam. O dövrdə Azərbaycan Televiziyasının maddi-texniki bazası çox zəif idi. Bu gün isə Azərbaycan Televiziyasının maddi-texniki bazası köklü surətdə yenilənib. Üstəlik, AzTV ölkəmizdə ilk televiziya olduğundan, Azərbaycanın ən peşəkar televiziya kadrları da orada cəmlənib. Bu televiziya dövlət büdcəsi xətti ilə maliyyələşdirildiyindən, o qədər də reklam arxasınca qaçmır və zənnimcə, əsas diqqəti hazırlanan verilişlərin keyfiyyətinə yönəldir. Açığını deyək, bir neçə il bundan əvvəl AzTV-nin reytinqi yüksək deyildi, aşağı idi. Ancaq bu gün AzTV-nin özündə və nəzdində fəaliyyət göstərən "İdman Azərbaycan", eləcə də "Mədəniyyət" kanalında rəngarəng verilişlər hazırlanır. Hesab edirəm ki, hazırda mənim yaşda olan insanlar Azərbaycan Televiziyasına daha çox xoşlamağa başlayıblar"- deyə bildirən Q.Hüseynli qeyd etdi ki, bunun da bir neçə səbəbi var.

Q.Hüseynlinin fikrincə, bunun birinci səbəbi bu televiziyanın güclü maddi-texniki bazasının olmasıdır və bununla da müasir tələblərə uyğun verilişlər hazırlamaq mümkün olur. Lakin bunun həlledici səbəb olmadığını deyən Q.Hüseynlinin sözlərinə görə, həlledici səbəb orada toplanmış güclü kadr potensialıdır. "Burada işləyənlər televiziya işini yaxşı bilən intellektual adamlardır. Bu səbəbdən də, açığını deyək, Azərbaycan Televiziyasında qeyri-ciddi, zövqümüzü korlayan, reytinq arxasınca qaçan verilişlər yox dərəcəsindədir. Əksinə, burada ciddi verilişlər, xalqımızın tarixi keçmişi, bu günü ilə bağlı maarifləndirici, insanların tərbiyəsinə, dünyagörüşünə müsbət təsir edən proqramlar hazırlanır. Müşahidə edirəm ki, hər gün Azərbaycan Televiziyasına baxan insanların sayı bir qədər də artır. Bu gün kimlərsə saxta reytinq düzəldib hansısa televiziyaları önə çəkə bilərlər. Ancaq mənim qənaətimə görə, Azərbaycan Televiziyası televiziya məkanında özünün liderliyini qoruyub saxlayır və artırmaqda da davam edir. Hesab edirəm ki, AzTV rəhbərliyinə son təyinat da işlərin müsbət istiqamətdə getməsinə təsir göstərir".

Q.Hüseynli Azərbaycan Televiziyasının xəbər sahəsində gördüyü işlərə də münasibət bildirdi. O qeyd etdi ki, ola bilsin, AzTV bu sahədə elə də operativlik nümayiş etdirməsin, lakin televiziyada gedən səhih xəbərlər onun xəbər işinə peşəkar yanaşmasından xəbər verir. "Ola bilər ki, burada xəbərin ötürülməsində operativlik o qədər də yüksək deyil. Ancaq rəngarənglik və çeşidli xəbərlərin verilməsi baxımından Azərbaycan Televiziyası yenə də bütün telekanalları üstələyir. Bu da televiziyanın əlinin altında olan çox geniş mənbələr hesabına baş verir. Üstəlik də, dediyim kimi, yaradıcılıq və televiziya ustalığı yüksək olan mütəxəssislərin hesabına bu həyata keçirilir. Dünyada televiziyalar xəbəri birinci ötürməklə diqqəti çəkir. Məncə, xəbəri birinci ötürmək yox, xəbəri daha məzmunlu, daha düşündürücü etmək xəbərin səviyyəsini artıran məsələlərdəndir. Ona görə də xəbər yayımı məsələsində də Azərbaycan Televiziyası heç bir telekanala uduzmur" - deyə müsahibimiz bildirdi.

*İradə SARIYEVA*

# Azərbaycan Türkmənistan üçün Avropaya qaz yolunu açsa da... ABŞ eksperti başqa bir maneədən danışdı...

**Azərbaycan qazının Avropaya nəqlini nəzərdə tutan "Cənub Qaz Dəhlizi" gələcəkdə genişlənəcəyi təqdirdə Türkmənistan, Qazaxıstan və İran mümkün əlavə mənbə olacaq. Bunu mətbuata açıqlamasında "International Market Analysis LTD" şirkətinin direktoru, məşhur ekspert Ariel Koen deyib.**




*"Qaz alıcıları konkret müəyyənləşmədən, qiymət razılaşdırılmadan boru xəttinin çəkilməsi risqlidir"*

## *İlham Şaban: "Əvvəl Avropada Türkmənistan qazını alacaq dövlət və şirkətlər müəyyən olunmalıdır"*

Adıçəkilən ölkələrin "Cənub Qaz Dəhlizi"nə qoşulması perspektivindən danışan ekspert Trans-Xəzər qaz kəməri layihəsi ilə bağlı bir sıra məqamlara toxunub: "Uzun müddət Trans-Xəzər qaz kəmərinin tikintisi layihəsinin tərəfdarı olmuşam. Amma təəssüf ki, Xəzər regionunda hazırkı şərtlər dənizin dibi ilə boru çəkməyə imkan vermir. Əgər Aşqabad və Bakı razılığa gəlsələr və Rusiya ilə İran müdaxilə etməsələr, bu, əla layihə ola bilər. Çünki boru kəmərinin uzunluğu elə də çox deyil və Türkmənistanda bu kəmərlə qaz nəql etmək üçün kifayət qədər qaz ehtiyatı var. Türkmənistan qaz ehtiyatına görə dünyada dördüncü ölkədir".

Ekspert əlavə edib ki, Qazaxıstan və İranla bağlı vəziyyət daha qəlizdir, çünki İranın şimaldakı ehtiyatları çox deyil, Qazaxıstan isə hazırda qazı daxili tələbat üçün istifadə edir, bundan başqa, ölkə qazı Mərkəzi Asiya-Çin qaz kəməri ilə Çinə ixrac edə bilər: "Əgər Qazaxıstanda iri qaz ehtiyatları aşkar olunsa və ölkə Trans-Xəzər qaz kəmərində iştirak üçün investor tapsa, o zaman bu boru kəməri ilə daha çox qaz nəql oluna bilər".

Onun sözlərinə görə, hazırda Avropada qaza daha çox tələbat var: "Mən Avropanın enerji mənbələri ilə təmin olunması baxımından Türkmənistanı birinci, Qazaxıstanı ikinci və sanksiyalardan azad olunacağı və şimalda qaz ehtiyatları aşkar edəcəyi təqdirdə, İranı üçüncü sırada görürəm".

O da məlumdur ki, Xəzərin statusu ilə bağlı razılıq əldə olunandan sonra Türkmənistan qazının Avropa bazarına çıxarılması ilə bağlı gözləntilər artır. Avropa İttifaqı bununla bağlı bir sıra təşəbbüslər göstərib. Əsas məsələ odur ki, Türkmənistan bununla bağlı səylərini artırsın. ABŞ Prezidenti Donald Tramp da Novruz bayramı münasibətilə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədova göndərdiyi təbrik məktubunda yazıb ki, Xəzər dənizinin hüquqi statusu artıq müəyyən edildiyindən, Türkmənistanın öz qazını Qərbə ixrac etmək üçün mövcud imkanlardan istifadə edəcəyinə ümidlidir. Təbii ki, bu da yalnız Trans-Xəzər vasitəsilə reallaşdırıla bilər. Çünki ən uyğun variant sözügedən kəmərin tikilməsidir. O baxımdan, Ariel Koenin Trans-Xəzərlə bağlı səsləndirdiyi fikirləri ekspertlər necə dəyərləndirirlər?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şabanın sözlərinə görə, A.Koen regionu yaxşı bilən ekspert olsa da, bəzi məsələlərlə bağlı tələskənliyə yol verir: "Onun məlum yanaşması bir qədər reallıqdan uzaqdır. Niyə? Ona görə ki, təkcə boru kəmərini tikməklə məsələ bitmir. Tutaq ki, Azərbaycanla Türkmənistan bu kəməri tikdilər, bəs sonra? Ona görə də əvvəl Avropada Türkmənistan qazını alacaq dövlət və şirkətlər müəyyən olunmalıdır. Özü də həmin qazı onları qane edəcək qiymətə alsınlar. Ən nəhayət, tranzit ölkələri razı salacaq qiymət təklif olunmalıdır. Yalnız bütün bu razılaşmalar əldə edildəndən sonra Trans-Xəzər boru kəmərini çəkmək olar. Ancaq sadaladığım məsələlərlə bağlı ortada heç bir iş yoxdur. Bu faktorlar həll edilmədən, boru kəmərindən danışmaq tezdir. Qaz alıcıları konkret müəyyənləşmədən, qiymət razılaşdırılmadan boru xəttinin çəkilməsi risqlidir. Kəmərin tikintisini təkcə Rusiya və İranın siyasi razılığı ilə əlaqələndirmək doğru deyil. Bəziləri fikirləşə bilər ki, Avropa Rusiyadan qaz asılılığını Türkmənistan hesabına azaltmaq istəyir. Ancaq nəzərə almaq lazımdır ki, Rusiyanın təklif etdiyi qazın qiyməti Türkmənistanın təklif etdiyi qiymətdən ucuzdur. Türkmənistan qazın min kubmetrini 400 dollardan aşağı satmaq fikrində deyil. Başqa bir tərəfdən, havaların mülayim keçməsi ilə əlaqədar 2017-ci illə müqayisədə 2018-ci ildə Avropanın qaz istehlakı 2 faiz aşağı düşüb. Qaz istehlakı bu ilin 3 ayı ərzində də azalıb. Ona görə də tələsik hansısa proqnozların verilməsini doğru hesab etmirəm. Nəzərə almaq lazımdır ki, Avropada avtomobillərin sayı 3 dəfə artsa da, son 30 ildə benzin istehlakı artmır. Ona görə ki, ən müasir texnologiyalardan istifadə edilir. O baxımdan hesab edirəm ki, bu kimi faktorlar nəzərə alınmalıdır".

***Vidadi ORDAHALLI***

# Müxalif radikalların "mitinq günü" dartışması yenidən başladı - Cəmi bir gün fərqə görə Müsavatla Milli Şuranın qırğını...

**Hakimiyyətə qarşı radikal müxalif mövqedə olan partiyalar arasında yeni qalmaqal yaşanır. Səbəb mitinq keçirmək istəyi ilə bağlıdır. Əvvəlcə Müsavat Partiyası belə bir istəyinin olduğunu bəyan edib.**




Partiyanın yaydığı məlumatda bildirilib ki, onlar "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanuna əsasən, 7 aprel, saat 15:00-dan 17:00-dək "Siyasi məhbuslara azadlıq!", "Sərbəst toplaşmaq hüququ təmin edilsin!", "Azad siyasi rəqabət şəraiti yaradılsın!" və s. şüarlarla yürüş-mitinq keçirmək üçün Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizova müraciət edib. Partiya yürüş-mitinqin keçirilməsi üçün bir neçə marşrut təklif edib.

Maraqlıdır ki, bu qərardan sonra Müsavat Partiyasının təmsil olunmadığı Demokratik Qüvvələrin Milli Şurası aprelin 6-da Bakıda "Məhsul" stadionunda mitinq keçirmək barədə qərar qəbul edib. Bu barədə Milli Şuranın sədri Cəmil Həsəni "Facebook" səhifəsində məlumat yayıb. O bildirir ki, respublika Konstitusiyası və "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanuna uyğun olaraq, Milli Şura dinc kütləvi aksiya keçirməyi planlaşdırır.

Qeyd edək ki, Milli Şuranın yanvarın 19-da keçirdiyi mitinqdən sonra Bakı meriyası indiyədək hər hansı aksiyanın keçirilməsinə razılıq verməyib.

Bakı Şəhər İcra Hakimiyyəti Demokratik Qüvvələrin Milli Şurasının fevralın 23-də və martın 2-də, Müsavat Partiyasının martın 10-da keçirmək istədiyi aksiyalara razılıq verməyib. Milli Şuranın Müsavatdan bir gün əvvələ mitinq təyin etməsi birmənalı qarşılanmayıb. Partiyanın funksioneri Mustafa Hacıbəyli birgə mitinq keçirmək istəmədikləri ilə bağlı Milli Şura rəhbərliyini tənqid edib. O özünün "Facebook" səhifəsində bunları yazıb: "Müsavatın birgə mitinqlər təklifindən Milli Şura Əli Kərimlinin timsalında imtina edib.

Martın 18-də Müsavat Divanı aprelin 7-də mitinq keçirmək barədə qərar verib. İndi oxudum ki, bundan 3 saat əvvəl Milli Şuranın aprelin 6-na mitinq təyin etdiyi barədə xəbər yayılıb.

Bu gün açıqlanan qərarın siyasi etikaya və müxalifətin maraqlarına nə dərəcədə uyğun olub-olmadığını kənara qoyuram - "hüquqlarıdır" deyirəm. Bunu sadəcə ona görə yazdım ki, "niyə bir yerdə keçirmirsiniz" sualını verənlər məsələnin nə yerdə olduğunu bilsinlər".

Göründüyü kimi, Müsavat Partiyası Milli Şuranın qərarını az qala özlərinə qarşı təxribat səviyyəsində dəyərləndirir. Doğrudan da maraqlı sual ortaya çıxır: əgər hər iki qurum hakimiyyətə qarşı müxalif mövqedə dayanırsa, tədbirin daha effektli alınması üçün niyə birgə deyil, fərdi qaydada mitinq keçirməkdə maraqlıdırlar?

Müsavat Partiyasının başqan müavini Səxavət Soltanlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ayrı-ayrılıqda mitinq keçirmək hər partiyanın hüququdur. Bir-birinə mane olmadan hər iki mitinqi daha kütləvi keçirmək olar: "Bütövlükdə, qarşısına hakimiyyəti dəyişmək məqsədi qoyan qüvvələrin və şəxslərin səmimiyyət donu geyinərək Müsavat Partiyasının 10 gün əvvəl aprelin 7-si üçün müraciət etdiyi yürüş-mitinqin əleyhinə başladıqları əks-təbliğat utancvericidir.

Necə yəni, "Həm bazar günü, həm də yürüş-mitinqə icazə verilmə ehtimalı yoxdur"?

Niyə yoxdur? Harda yazılıb ki, "şənbə günü mitinq olar, bazar günü yox"? Harda yazılıb ki, bu ölkədə yalnız mitinq ola bilər, o da yalnız "Məhsul" stadionunda?

Bütövlükdə, hakimiyyət dəyişməkdən danışanlar necə olur ki, bir qeyri-qanuni proseduru dəyişməyi mümkünsüz hesab edirlər?"

Əlaqə saxladığımız Milli Şura rəhbərliyində təmsil olunan şəxslər bu məsələ ilə bağlı şərh vermək istəmədiklərini bildirdilər. Ancaq sosial şəbəkələrdə gedən polemikalardan bəlli olur ki, Milli Şura mitinq məsələsində Müsavatı qabaqlayıb, ondan ayrı mitinq keçirməklə özünün əsl real müxalif güc olduğunu sübut etmək istəyir. Müzakirələrdə qeyd edilir ki, onsuz da Müsavatın mitinqi zəif olacaq, onda niyə Milli Şuranın əziyyətindən onlar dividend qazanmalıdırlar? Bu amilin özü bir daha sübut edir ki, radikal müxalif cameədə hələ ki, hakimiyyətdən daha çox öz aralarında mübarizə gedir. Hər iki mitinqə icazə verilib-verilməyəcəyi bəlli deyil. İstənilən halda, yaranmış vəziyyət müxalifətdəki dərin fikir ayrılığı və çatların olmasından xəbər verir.

***Məhəmmədəli QƏRİBLİ***

**Erməni KİV-nin yaydığı məlumata görə, Ermənistanın ədliyyə naziri Artak Zeynalyan azaraq Ermənistan ərazisinə keçmiş Azərbaycan vətəndaşı ilə bağlı səsləndirdiyi fikrə görə ölümlə təhdid olunur. A.Zeynalyan bununla əlaqədar hüquq-mühafizə orqanlarına müraciət etdiyini təsdiqləyib.**

# Ermənistan ədliyyə nazirinin həyatı azərbaycanlı girova görə təhlükə altında...

## *Əhməd Şahidov: "Bununla bütün dünya görür ki, Ermənistan cəmiyyəti heç də Paşinyanın təqdim etdiyi kimi demokratik deyil"*



*"Erməni cəmiyyətinin necə reaksiya verməsindən asılı olmayaraq, həmin ölkə Elvin İbrahimovu qaytarmaq məcburiyyətindədir"*

O bildirib ki, azaraq Ermənistan ərazisinə keçmiş Azərbaycan vətəndaşının ölkəsinə qaytarıla biləcəyi ilə bağlı açıqlamasından sonra bu barədə sosial şəbəkələrdə paylaşılan xəbərlərin altından yazılan şərhdə açıq ölüm təhdidi alıb. Nazir qeyd edib ki, hətta ailəsinin təhlükəsizliyindən belə narahatdır. Erməni mediası araşdırıb ki, naziri ölümlə hədələyən şəxs 35 yaşlı Tavuş vilayət sakinidir.

Qeyd edək ki, A. Zeynalyan brifinq zamanı bildirib ki, Azərbaycan vətəndaşı Elvin Arif oğlu İbrahimovun Ermənistan sərhədini keçməsində cinayət elementi yoxdursa və o öz xoşu ilə qayıtmaq istəyirsə, Ermənistan onu Azərbaycana təhvil verməlidir.

Qeyd edək ki, Azərbaycanın Qazax rayonunun Yuxarı Salahlı kənd sakini, 1986-cı il təvəllüdlü İbrahimov Elvin Arif oğlu martın 15-dən 16-na keçən gecə Qazax rayonunun Ermənistan Respublikası Noyamberyan rayonu ilə sərhəd xəttində yolu azaraq qarşı tərəfə keçib. E.İbrahimov sərhədi keçərkən Ermənistan hərbçiləri tərəfindən açılmış atəş nəticəsində yaralanıb.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının apardığı ilkin araşdırma zamanı məlum olub ki, E.İbrahimov Qazax rayonlararası ruhi xəstəxanasında qeydiyyatdadır. Dövlət Komissiyası E.İbrahimovun azad edilməsi ilə bağlı aidiyyəti beynəlxalq təşkilatlara müraciət edib.

Baş verən hadisə Ermənistandakı real vəziyyətin əsl inikasıdır. Azərbaycanla bağlı məsələdə hətta qanunlara əsaslanıb düz söz demək istəyən nazir belə ölümlə hədələnirsə, bu nəyin göstəricisi sayıla bilər?

Azərbaycanlı əsir və girovlarla bağlı məlumat mərkəzinin koordinatoru, hüquq müdafiəçisi Əhməd Şahidov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, E.İbrahimovla bağlı məsələ tam sosial xarakterlidir: "Qazax rayonlararası ruhi xəstəxanasında qeydiyyatda olan həmin şəxsin xəstə olduğu davranışlarında da özünü büruzə verir. Bilməyərəkdən sərhədi keçib. Erməni rəsmiləri bunu ilkin təmas nəticəsində görə biliblər. Qətiyyətlə əmindirlər ki, həmin adam ruhi xəstədir. Bütün beynəlxalq konvensiyalar bu cür şəxslərin qeyd-şərtsiz azadlığa buraxılmasını tələb edir. Maraqlıdır ki, E.İbrahimovla yerli və xarici hüquq müdafiəçilərinin, jurnalistlərin və ya diplomatik korpus nümayəndələrinin deyil, məhz Karen Kazaryanın atasının görüşməsi şübhəli məqamlardan xəbər verir. Açıq mesaj verirlər ki, gəlin Kazaryanla onu dəyişək. Bu, Ermənistan tərəfinin açıq təxribat cəhdidir. Onun təcili müalicəyə ehtiyacı var. O, şüurlu şəkildə sərhədi keçməyib, sadəcə, psixi pozğunluğun nəticəsində qeyri-iradi şəkildə düşmən tərəfə keçib. K.Kazaryanın E.İbrahimovla eyniləşdirilməsi əsla yolverilməzdir. Ermənistan bir terrorçunu ruhi xəstə ilə dəyişdirmək niyyətindədir. Karenin atası Armen Kazaryan azərbaycanlı əsir E.İbrahimovla görüşdə özünü sülhsevər kimi təqdim edir, guya Elvinin tezliklə sağalmasını diləyir və dərhal öz oğlu barədə söz açır, guya Karenin də ruhi xəstə olduğunu və qeyri-iradi Azərbaycan ərazisinə keçdiyini deyir. Bununla gələcəkdə Karenlə Elvinin dəyişdirilə biləcəyi mesajını verməyə çalışır. Maraqlıdır ki, artıq beşinci ildir erməni girovluğunda olan Dilqəm Əsgərov və Şahbaz Quliyevlə bircə dəfə də olsun görüşülməyib, heç bir dənə foto və ya video yayılmayıb erməni tərəfindən. K.Kazaryanın atası bu müddət ərzində heç cəhd edibmi Dilqəm və Şahbazla görüşməyə? Bəs necə oldu ki, E.İbrahimovla görüşə bilib?"

Hüquq müdafiəçisinin sözlərinə görə, Ermənistan hakimiyyəti Elvinin Azərbaycana qaytarmağın zəruriliyini dərk edir və bu səbəbdən də onların ədliyyə naziri elə açıqlama verib: "Mən həmin nazirlə dəfələrlə beynəlxalq tədbirlərdə rastlaşmışam. Əvvəl QHT təmsilçisi olub. Beynəlxalq qayda-qanunları yaxşı bildiyi üçün doğrunu deyib. Amma görünən budur ki, Ermənistan cəmiyyətində Azərbaycana qarşı dözümsüzlük, düşmən mövqe hakimdir. Hətta nazirə olunan təhdid də gözlənilən idi. Çünki Ermənistanda yalançı və formal demokratlar hakimiyyətdədir. Əslində, bununla bütün dünya görür ki, Ermənistan cəmiyyəti heç də Paşinyanın təqdim etdiyi kimi demokratik deyil. Erməni cəmiyyətinin necə reaksiya verməsindən asılı olmayaraq, həmin ölkə E.İbrahimovu qaytarmaq məcburiyyətindədir".

***Məhəmmədəli QƏRİBLİ***

**Vilnüs Dairə Məhkəməsi 1991-ci il hadisələri ilə əlaqədar açılan cinayət işi çərçivəsində sovet marşalı, keçmiş SSRİ-nin müdafiə naziri Dmitri Yazov barəsində insanlıq əleyhinə törətdiyi cinayətlərə və hərbi qanun pozuntularına görə 10 il azadlıqdan məhrumetmə hökmü çıxarıb.**

# Litva SSRİ müdafiə naziri Yazovun cəzasını kəsdi, qaldıq biz... - 20 Yanvarın cəzası...

## *Rauf Zeyni: "Hər iki istiqamətdə səylərimizi göstərməliyik"*



*"Heç olmasa ömürlərinin sonunda hansı cinayətə yol verdikləri ilə bağlı vicdanları qarşısında hesabat vermiş olarlar"*

Litva KİV-lərinin yazdığına görə, Yazovla birlikdə keçmiş KQB zabiti Mixail Qolovatova da eyni ittihamlar üzrə 12 il həbs cəzası verilib. Lakin cinayətkarların ikisi də Rusiyada olduğundan, onlar barədə Litva məhkəməsinin həbs qərarı qiyabi xarakter daşıyır. Məhkəmə iclası zamanı rus diplomat və jurnalistlər zala buraxılmayıb.

Qeyd edək ki, bundan əvvəl Litvanın Baş Prokurorluğu Dmitri Yazovun insanlıq əleyhinə törətdiyi cinayətlərə görə ömürlük həbs olunmasını tələb etmişdi. Litva Baş Prokurorluğunun ittihamnamə aktında qeyd olunub ki, Dmitri Yazov Litvanı SSRİ-nin tərkibinə qaytarmaq məqsədilə 1990-cı ilin sonunda hərbi və siyasi xadimlərdən ibarət 160 nəfərlik mütəşəkkil qrup yaradıb: "O, beynəlxalq humanitar hüququn qorunması altında olan insanların ölümü, işgəncə və digər qeyri-insani davranışlar, qadağan olunmuş hərbi hücumlar, qadağan olunmuş hərbi sursatdan istifadə və digər hərbi və insanlıq əleyhinə cinayətlərdə ittiham olunur".

Yazovla birgə 1991-ci il 13 yanvar hadisələrində əli olan 67 nəfərin cəzalandırılması tələb olunub. Onların sırasında Litvalı dövlət xadimlərilə yanaşı, KQB-nin keçmiş zabiti Mixail Qolovatov, SSRİ daxili işlər nazirinin müavini Nikolay Demidov və digərləri var.

Qeyd edək ki, hazırda Moskvada yaşayan 94 yaşlı Dmitri Yazov 1987-1991-ci illərdə SSRİ-nin müdafiə naziri olub. O, 1990-cı ildə marşal rütbəsi alıb. Yazov 1990-cı ildə Bakıda törədilən 20 Yanvar faciəsinin baiskarlarından biridir. Bakıda törədilən 20 Yanvar faciəsi istər miqyas, istərsə də həlak olanların sayı baxımından Litvadakından dəhşətlidir. Azərbaycanda dəfələrlə həmin qətliamı törədən SSRİ rəhbərliyi ilə bağlı hüquqi qərarın verilməsi, onlar üzərində qiyabi də olsa məhkəmənin keçirilməsi təkliflərii irəli sürülsə də, bu ideya reallaşmayıb. Maraqlıdır, biz belə bir məhkəmənin keçirilməsində, heç olmasa xalqımızın qanına əli batmış cəlladlara qiyabi məhkəmə hökmlərinin çıxarılmasında kimi gözləyirik? Analoji məhkəmə prosesinin Bakıda keçirilməsinə ehtiyac varmı?

Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, onlar dəfələrlə bu məsələni qaldırıblar: "Azərbaycanda elə 1990-cı ildən sonra bu tələb gündəmdə olub. Nəinki tələb, hətta bu istiqamətdə real işlər də görülüb. İstər 20 Yanvar qırğını, istərsə də Sumqayıt hadisələri ilə bağlı cinayət işi də açılıb. Bu istiqamətdə zəruri istintaq hərəkətləri aparılıb. Hüquqla da müəyyən edilib ki, həmin hadisələrin törədilməsində təqsirkar olanlar SSRİ rəhbərliyidir. Biz hər zaman inanmışıq ki, həmin şəxsləri məsuliyyətə cəlb edə biləcəyik. Yəni bu istiqamətdə bizi fəaliyyətsizlikdə günahlandırmaq doğru olmaz. Ancaq təəssüflər olsun ki, bu günə kimi həmin adamların həbs edilərək məsuliyyətə cəlb edilməsinə nail ola bilməmişik. Bunun da obyektiv səbəbləri var ki, bizdən asılı deyil. Söhbət kütləvi insan qətlindən gedirsə, onu törədənlər mütləq cəzalarını almalıdırlar. Şəxsən mən həmin adamlar barədə qiyabi yox, əyani hökmün çıxarılmasının tərəfdarıyam. Əgər bu mümkün olmursa, biz Litvadakı təcrübəni də nəzərdən keçirə bilərik. Bunun təşəbbüskarlığı yenə də bizim əlimizdədir. İstənilən vaxt hazır istintaq materiallarına əsasən onların üzərində məhkəmə keçirə bilərik. Bunu bizə kimsə qadağan edə bilməz. Beynəlxalq aləmin reaksiyası baxımından belə qiyabi hökmün çıxarılmasının müsbət nəticəsi ola bilər. Amma həmin qiyabi hökm bizim 20 Yanvar yaramızı sağalda bilməyəcək. Bunun üçün həmin qətliamı törədənlərin real şəkildə cəzalandırılması lazımdır. Düşünürəm ki, hər iki istiqamətdə səylərimizi göstərməliyik. Bir faktı da qeyd edim ki, həmin adamlar artıq ömürlərinin sonunu yaşayırlar. Mənə elə gəlir ki, onlar sağ ikən belə qərarın verilməsi daha yaxşı olar. Heç olmasa ömürlərinin sonunda hansı cinayətə yol verdikləri ilə bağlı vicdanları qarşısında hesabat vermiş olarlar".

***Məhəmmədəli QƏRİBLİ***

# NATO-nun Qafqaz strategiyası və Azərbaycanın neytral mövqeyi...

**Məlum olduğu kimi, Gürcüstanda NATO-ya üzv ölkələrin və alyansın tərəfdaşlarının "NATO-Geo exercise 2019" adlı irimiqyaslı komanda-qərargah hərbi təlimləri keçirilib. İkinci dəfədir keçirilən bu tip hərbi təlim daha irimiqyaslı olması ilə seçilib. 24 ölkədən hərbçilərin iştirak etdiyi təlimlərdə məqsəd Gürcüstan Silahlı Qüvvələrinin, Şimali Atlantika İttifaqının və tərəfdaş ölkələrin birgə fəaliyyətini gücləndirmək olub.**



Gürcüstanın müdafiə naziri Levan İzoriya bildirib ki, Tiflisin NATO ilə əməkdaşlığı və keçirdiyi birgə hərbi təlimlər hansısa ölkəyə qarşı yönəlməyib. Amma NATO-nun sərhədləri yaxınlığındakı fəaliyyətini Rusiya heç də birmənalı qarşılamır. Xüsusən də NATO baş katibinin Mərkəzi Asiya və Qafqaz üzrə xüsusi nümayəndəsi Ceyms Appaturayın açıqlamaları Kremli xeyli hiddətləndirib. Appaturay bildirib ki, NATO Gürcüstanla əməkdaşlığını, xüsusilə Qara dənizin təhlükəsizliyinin təminatı sferasında genişləndirməyə hazırdır. Onun sözlərinə görə, Gürcüstanın NATO-ya inteqrasiya prosesinin uğurlu davamı üçün bütün imkanları var.

Rusiya Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda isə bildirilir ki, NATO Qara dəniz regionunu hərbiləşdirməklə məşğuldur: "NATO Şərqi Avropada hərbi varlığını gücləndirir, hərbi və mülki infrastrukturu modernləşdirir. Rumıniyaya ABŞ-ın havadan müdafiə sistemləri yerləşdirilib. Dəniz və hava məkanında patrulların sayı artırılıb, başda Rusiya sərhədləri olmaqla, bölgədə kəşfiyyat fəaliyyəti aktivləşdirilib. NATO hərbi gəmilərinin Qara dənizdə qalma müddəti 80 gündən 120 günə qaldırılıb. Alyans bölgədəki hərbi planlarını gizlətmir". Moskva bütün bunlara seyrçi qalmaq niyyətində olmadığını da açıqlayıb. Rusiyanın Cənub Hərbi Dairəsini gücləndirmək istiqamətində yeni addımların da bunun təsdiqi sayılır. Baş verənləri şərh edən Rusiyanın "regnum.ru" portalı da yazır ki, Qafqaz və Qara dənizdə NATO-Moskva qarşıdurması böyüyür: "NATO baş katibi Yens Stoltenberqin Tiflisə səfəri, Gürcüstan prezidenti və baş nazirlə rəsmi görüşlər, ərazisində NATO-ya üzv 24 ölkənin və alyans tərəfdaşlarının komanda-qərargah təlimlərinin keçirildiyi ölkədə NATO ilə birgə fəaliyyət göstərən JTEC təlim mərkəzinə baş çəkməsi Cənubi Qafqazın Rusiyanın "cənub qarınaltısı"nda yerləşən bu respublikasının alyans üçün önəm dərəcəsindən xəbər verir.

Stoltenberq səfərin gedişində birbaşa Gürcüstana dair təmtəraqlı xeyli bəyanat verib, etiraf edib ki, bu ölkə Avroatlantik inteqrasiya yolunda böyük uğura nail olub və artıq söz verib ki, nəticədə ölkə mütləq alyansın üzvü olacaq. NATO baş katibi, bununla yanaşı, bir daha təsdiqləyib ki, alyans tanınmış beynəlxalq sərhədlər çərçivəsində Gürcüstanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir və Rusiyanı Abxaziya və Cənubi Osetiyanın müstəqilliyini geri götürməyə çağırıb, qeyd edib ki, NATO-ya girmək qərarını Gürcüstanın özü və alyansın başqa üzvləri qəbul edir, buna görə də "Rusiya və ya hansısa başqa ölkə bu prosesə təsir edə bilməz".

Gürcüstan baş naziri Mamuka Baxtadze də bildirib ki, ölkənin NATO-ya üzvlüyü təkcə siyasi qərar deyil, həm də gürcü xalqının seçimidir və heç kim bu prosesdə Tiflisə mane ola bilməz.

Bu arada NATO baş katibinin Tiflis səfərinin hərbi-siyasi mənasına bu kontekstdə baxmaq gərəkdir ki, Gürcüstan bölgədə NATO-nun rəsmi tərəfdaşı sayılan yeganə ölkədir.

Rusiya prezidenti Vladimir Putin isə dəfələrlə bildirib ki, Moskva NATO-nun Gürcüstan və Ukrayna sayəsində genişləndiyinə son dərəcə mənfi yanaşır, alyans bu ölkələri öz sıralarına almadan da onlarla işləyə bilər. "Bakı politoloqlar klubu"nun başçısı Zaur Məmmədov da Gürcüstanın NATO üzvü olmaq istəyini bölgə üçün ağrılı mövzu sayır. O qeyd edib: "NATO ölkələrinin coğrafiyası Xəzərədək genişlənir. Bu, bir yandan ölkələrin təhlükəsizliyinə bağlıdır, o biri yandan Rusiya-Qərb qarşıdurmasına cəlb edilə biləcək kiçik ölkələr üçün çox böyük çağırışdır. Avropa Birliyinə münasibətdə hər şey birmənalıdırsa - nə Ukrayna, nə də Gürcüstan bu təşkilatın üzvü olacaq - NATO-ya münasibətdə hər şey belə birmənalı deyil. Bu ölkələr həmin alyansın üzvü ola da, olmaya da bilər". Onun fikrincə, müstəqil siyasət yürütmək önəmlidir ki, bunu özəlliklə Azərbaycan sərgiləyir.

Politoloq əlavə edib: "Biz 2011-də Qoşulmama Hərəkatına təsadüfən üzv olmamışıq. Ölkəmiz bu il bu təşkilatda sədrlik edir, sonralar Azərbaycan paytaxtında təşkilatın sammitinin keçirilməsi gözlənir. Azərbaycan NATO ilə münasibətləri möhkəmləndirir, amma eyni zamanda eyham vurur ki, alyansın üzvü olmayacaq, öz ərazisinin qeyri-bölgə dövlətlərinin maraqlarının təmin edildiyi yer olmayacağını anlayaraq olduqca rasional siyasət aparır. Axı bölgə son dərəcə partlayış təhlükəsindədir. Bir yandan Yaxın Şərq, o biri yandan həm bölgə ölkələrinin, həm də dünyanın siyasi oyunçularının güclü təsiri və geopolitik maraqlarının toqquşması".

O, bununla yanaşı vurğulayıb ki, bölgədəki münaqişələrin həll edilməməsinə həm Rusiya, həm də Cənubi Qafqaz respublikaları üçün sabitliyə təhdid kimi baxılmalıdır, buna görə də bunları həll etmək gərəkdir. Məmmədov nəticəyə gəlib - Ermənistanın NATO ilə münasibətlərinə gəlincə, bu da inkişaf edir, Ermənistan NATO-nun müxtəlif hərbi təlimlərinə qatılır və belə bir imkan olsaydı, İrəvan hələ Serj Sarkisyanın dönəmində təkcə bu təşkilata deyil, həm də Qərbin başqa siyasi institutlarına daha çox inteqrasiya olunardı, Ermənistanın yeni hökuməti isə hətta gizlətmir ki, NATO ilə münasibətlərin inkişafı, ortaq layihələr Ermənistanın milli maraqlarındadır, amma İrəvan məlum şərait, yəni Rusiya və İrandan müəyyən asılılıq üzündən bir qədər çətin durumdadır.

Nə etməli, NATO Cənubi Qafqaz yönündə, doğrudan da, ciddi və məqsədyönlü şəkildə irəliləyir, Rusiya öz əndişəsini ifadə edir, Gürcüstanın bloka üzvlüyü artıq zaman məsələsidir, Ermənistan da ehtiyatla olsa da, alyansa arabir göz gəzdirir, təkcə Azərbaycan öz seçiminə sadiqdir və təşkilatla ardıcıl bərabər münasibətlərə tərəfdardır. Hadisələrin necə inkişaf edəcəyini zaman göstərər".

Bunlarla yanaşı, portal yazır ki, qarşıdakı dövr ərzində Rusiya və NATO-nun Qafqazda çəkişməsi sadəcə güclənməkdə davam edəcək.

*Tahir TAĞIYEV*

# BMT TŞ-nin 14 üzvü Suriyanı dəstəklədi, Trampın Colan qərarı ABŞ-ı meydanda tək qoydu



**ABŞ Prezidenti Donald Trampın Colan təpələri üzərində İsrailin suverenliyini tanımasından sonra Suriyanın tələbi ilə BMT Təhlükəsizlik Şurasının iclası keçirilib.**

Baki-xeber.com xəbər verir ki, Şuranın digər 14 üzvü ABŞ-ın qərarına qarşı çıxaraq, işğal olunmuş ərazinin İsrail torpağı olmadığını bildiriblər.

ABŞ-ın BMT-dəki daimi nümayəndəliyinin siyasi koordinatoru Rodney Hunter Trampın qərarını müdafiə edib. Hunter "Colan təpələrinə nəzarətin Suriya rejimi və İrana veriləcəyi halda rejim, İran və Hizbullahın İsrailə qarşı hücumlarına göz yumulmuş olacağı" deyib.

Ancaq Birləşmiş Ştatların birtərəfli qərarı BMT TŞ-də dəstək ala bilməyib, ABŞ tək qalıb. Şuranın digər 14 üzvü işğal olunmuş ərazinin İsrail torpağı olmadığını bildirib. Şuradakı Avropa İttifaqına (Aİ) üzv dövlətlər də Birləşmiş Ştatların Colan təpələri qərarının BMT Təhlükəsizlik Şurasının qətnamələrinə zidd olduğunu bildiriblər.

**Ermənistan parlamentində keçirilən toplantıda Nikol Paşinyan deputat Nair Zöhrabyanın "İlham Əliyevlə Vyandakı görüşünüzün dəqiq gündəliyi varmı" sualına belə cavab verib: "Biz sadəcə olaraq müxtəlif məsələlər ətrafında fikir mübadiləsi aparmalıyıq, hesab edirəm ki, müzakirələr əvvəllər dilə gətirilmiş fikirlər çərçivəsində keçiriləcək.**

# Vyana görüşü astanasında Paşinyan yeni pozucu təxribata əl atdı - "gündəliksiz söhbət" formatı...

***Yeganə Hacıyeva:** "Daxili auditoriyadan qorxduğu üçün, guya İlham Əliyevlə görüşdə heç nəyin müzakirə olunmayacağını deməklə özünü sığortalamaq istəyir"*



*"Azərbaycan tərəfi heç vaxt gündəliyi olmayan görüşdə iştirak etməz"*

Görüşün gündəliyi ilə bağlı bizim fikirlərimiz olduğu kimi qalır. Mən əvvəlki fikirlərimdə də demişəm ki, ilkin etapda keçirilən görüşlərin konkret gündəliyi olmamalıdır".

Paşinyanın sözlərinə görə, Xankəndidə Təhlükəsizlik Şurasının birgə iclasında elan edilən danışıqların və müzakirələrin aparıldığı gündəlikdir: "Bu, bütün gələcək danışıqlar prosesi üçün platformadır".

Deputatlardan birinin "Qarabağın danışıqların tərəfi kimi danışıqlar prosesinə cəlb edilməsi məsələsinin də gündəlikdə olduğunu ehtimal etmək olarmı" sualına cavabda Paşinyan təsdiq cavabı verib.

Göründüyü kimi, Paşinyan, faktiki olaraq, Azərbaycan Prezidenti ilə nəzərdə tutulan görüşü pozmaq üçün əlindən gələni edir. Danışıqların və sülh prosesinin ziddinə olan, həqiqət yükündən uzaq bəyantlar verir. Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, qondarma qurumun danışıqlar prosesində iştirakı qeyri-mümkündür. Həmçinin, biz daim bəyan etmişik ki, substantiv, özündə məna və məzmun ifadə edən görüşlərin tərəfdarıyıq. Təbii ki, bu cür mövqe sərgiləyən ölkə heç vaxt gündəliyi müəyyən olunmayan bir görüşdə iştiraka razılıq verməz. Belə olan halda, Paşinyanın verdiyi ziddiyyətli bəyanatlar nəyə hesablanıb?

Politoloq Yeganə Hacıyeva qəzetimizə bildirdi ki, bu, Paşinyanın əvvəlki davranışlarına sadiq qaldığının bariz nümunəsidir: "Azərbaycan tərəfi hər zaman ən yuxarı səviyyələrdə bəyan edib ki, formal xarakterli danışıqlarda iştirakın tərəfdarı deyil. Ermənistan daim bu danışıqları müxtəlif bəhanələrlə pozub. Paşinyan hakimiyyətə gələndən sonra beynəlxalq birlik ondan əvvəlki sələflərindən fərqli addımlar gözləyirdi. Nəticədə biz gördük ki, özünə demokrat adını qoyan bu adam əvvəlki ölkə rəhbərlərindən də ziddiyyətli davranır. Format dəyişikliyini ortaya atdı, alınmadı. Danışıqlardan bir müddət seçkiyə görə imtina etdi. İndi isə beynəlxalq təzyiqlərə davam gətirə bilməyib danışığa gedir. Anlayır ki, başqa yolu qalmayıb. Amma həm də daxili auditoriyadan qorxduğu üçün, guya İlham Əliyevlə görüşdə heç nəyin müzakirə olunmayacağını deməklə özünü sığortalamaq istəyir. Azərbaycan tərəfi heç vaxt gündəliyi olmayan görüşdə iştirak etməz. Əlləxüsus da əgər orada Paşinyanın dediyi kimi, qondarma qurumun da danışıqlarda tərəf kimi iştirakından söhbət gedəcəksə. Bu, mümkün olmayan məsələdir. Aydın şəkildə görünür ki, Paşinyan bu cür addımları ilə sülh danışıqlarını pozmağa çalışır. Onlar əvvəl nəbzi yoxladılar. XİN müavini səviyyəsində dedilər ki, artıq Dağlıq Qarabağın tərəf kimi tanınmasının vaxtı çatıb. Bunları mühüm görüş ərəfəsində səsləndirdilər ki, Azərbaycan tərəfi psixoloji gərginliyə düşüb, görüşdən imtina etsin. Amma bizim diplomatiyamız çox soyuqqanlı və doğru davranır. Konkret şəkildə mövqeyimizi ortaya qoyub sübut edirik ki, Paşinyan yalan danışır.

Biz onu təkzib etsək də, o yenə də görüşdən imtina etmir. Hər halda, Paşinyanın manevrləri üçün halqa çox daralıb. Bununla uzağa gedə bilməyəcək. Sülh istəmirsə, Azərbaycan Ordusu ilə üz-üzə gəlməli olacaq".

***Məhəmmədəli QƏRİBLİ***

**Məlum olduğu kimi, Prezident İlham Əliyev Ermənistanın baş naziri Nikol Paşinyanla görüşəcək. Belə ki, Minsk Qrupunun həmsədrlərinin təklifi əsasında İlham Əliyev və Nikol Paşinyanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə müzakirələr aparmaq məqsədilə martın 29-da Avstriyanın paytaxtı Vyana şəhərində görüşünün keçirilməsi barədə razılıq əldə olunub.**

# Vyana görüşü də Qarabağ münaqişəsinin həllində real mərhələ açmasa... Azərbaycanın zorən çıxış yolları müzakirədə...

***Fikrət Sadıqov:** "Azərbaycan Paşinyanın nazıyla çox oynamamalıdır"*




*"Ermənistan bundan nəticə çıxarmayacaqsa, o zaman alternativ variantlar işə salınmalıdır"*

Ancaq Paşinyanın apardığı siyasət Qarabağ münaqişəsinin həlli məsələsinə ciddi yenilik gətirməyib. Paşinyan taktikanı dəyişsə də, köhnə cinayətkar hakimiyyətin işğal strategiyasından əl çəkməyib. Danışıqlar ərəfəsində bir sıra pozucu açıqlamalar verir, siyasi reveranslar edir. Bu kontekstdə Paşinyan Müdafiə Nazirliyində qapalı iclas keçirib. Erməni mediasının iddiasına görə, Paşinyan orduya müharibəyə hazırlıq tapşırığı verib. Belə ki, danışıqlar masasından qaçmağa hazırlaşan erməni baş nazir belə addımın müharibəyə səbəb olacağını anlayır. Bununla yanaşı, Paşinyan növbəti pozucu açıqlama ilə çıxış edərək bəyan edib ki, Vyanada Azərbaycan Prezidenti ilə keçiriləcək görüşün konkret gündəliyi yoxdur: "Biz sadəcə olaraq müxtəlif məsələlər ətrafında fikir mübadiləsi aparmalıyıq, hesab edirəm ki, müzakirələr əvvəllər dilə gətirilmiş fikirlər çərçivəsində keçiriləcək".

Digər tərəfdən, Paşinyan ötən il baş nazir olandan sonra cəbhə bölgəsində atəşkəsin pozulması halları azalmışdı. Ancaq məhz danışıqlar ərəfəsində Ermənistan tərəfindən atəşkəsin açıq-aşkar pozulması halları artdı. Nəticədə Azərbaycan əsgəri şəhid oldu. Ən nəhayət, danışıqlara çox az vaxtın qaldığına baxmayaraq, Ermənistan ordusu işğal olunmuş Ağdam rayonunda irimiqyaslı hərbi təlimlərə start verib. Təlimlərdə ağır silahlardan istifadə edilir.

Bütün bunlar onu göstərir ki, Paşinyan danışıqları pozmaq və yaxud da, ən azından, nəticəsiz keçməsini istəyir. Bütün bunların fonunda, Vyanada keçiriləcək danışıqlarda əhəmiyyətli nəticə əldə edilməsə, Azərbaycan nə etməlidir?

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, bu görüş Paşinyanla ilk rəsmi görüş olduğu üçün, Azərbaycan danışıqlarla bağlı öz şərtlərini açıq şəkildə ona bəyan etməlidir: "Fikrimcə, bu görüşdən elə böyük gözlənti yoxdur. Ona görə ki, bu, Dağlıq Qarabağ danışıqları ilə bağlı Paşinyanla keçiriləcək ilk rəsmi görüşdür. Düzdür, indiyə qədər Prezident İlham Əliyevin Paşinyanla müəyyən görüşləri keçirilib, amma bu görüşlər ayaqüstü olub. Hansısa tədbir çərçivəsində qısamüddətli danışıqlar keçirilib. Paşinyan müxtəlif pozucu bəyanatlar verib və təəssüflər olsun ki, yenə də belə bəyanatlar verir. Ancaq onun ziddiyyətli bəyanatlar verməsinə rəğmən, indiyə qədər hansısa istəyinə nail ola bilməyib. İlk əvvəl bəyan etmişdi ki, separatçı qurum danışıqlarda tərəf olmalıdır. Onun bu istəyi həyata keçmədi. Ən başlıcası, beynəlxalq qurumlar bunu dəstəkləmədilər. Ona başa saldılar ki, bu mümkün olan iş deyil. Hesab edirəm ki, Azərbaycanın danışıqlarda mövqeyi dəyişməz olaraq qalır. Geosiyasi iqlimdən və qonşu dövlətdə baş verən inqilabi hadisələrdən asılı olmayaraq, təbii ki, Azərbaycan Paşinyanın nazıyla çox oynamamalıdır. Biz həmişə özümüzdə gücün istifadəsi üslubunu saxlamalıyıq.

Ən başlıcası, Paşinyana bunu açıq şəkildə izah etməliyik. Düşünürəm ki, Vyana görüşündə dövlət başçısı bunu Paşinyana izah edəcək. Azərbaycan açıq şəkildə bəyan etməlidir ki, bundan sonra nəticəsiz danışıqlara qatılmayacaq. Ermənistan bundan nəticə çıxarmayacaqsa, o zaman alternativ variantlar işə salınmalıdır".

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Vyana görüşü Qarabağ məsələsinin çözümündə həlledici əhəmiyyət daşıya bilər, əgər Ermənistan...

**Azərbaycan və Ermənistan liderlərinin Vyanada Dağlıq Qarabağ münaqrişəsi ilə bağlı görüşü və bunun hansı nəticələrə gətirib çıxaracağı barədə indi ən müxtəlif fikirlərə, proqnozlara rast gəlmək mümkündür. Amma burada əsas ümumi cəhət budur ki, Qarabağ məsələsində Ermənistanın baş naziri Nikol Paşinyanın manevr imkanları tükənib.**

Bu mənada, Ermənistanın son bir neçə ayda Dağlıq Qarabağ probleminin həllini tapması istiqamətində müsbət irəliləyişlərdən narahat olaraq müxtəlif təxribatçı addımlar atması fonunda görüşdə necə mövqe sərgiləyəcəyi hər kəsi maraqlandırır. Lakin bir məsələ dəqiqdir ki, Azərbaycan lideri Ermənistanın mövqeyini əks etdirən Nikol Paşinyandan konkret münasibət tələb edəcək. Özü də ATƏT-in Minsk Qrupunun həmsədrlərinin əhatə dairəsində Ermənistandan konkret münasibət tələb olunması da Paşinyanın nala-mıxa vurmasına imkan vermir.

Məsələnin bu tərəfinə nəzər salan rusiyalı ekspert Stanislav Tarasov da qeyd edir ki, Vyana görüşü əvvəlkilərdən fərqlənir. Ekspertin sözlərinə görə, rəsmi səviyyədə xarici əlamətlərə diqqət yetirilərsə, məhsuldar dialoq üçün indilikdə nikbin fikir səsləndirmək hələ ki, çətindir: "Ancaq şəxsən fikrim budur ki, bu cür şəraitdə iki dövlət rəhbəri şəxsi ələqələr qurur, danışıqlar prosesində dinamika qazanmağa çalışır. Mənə elə gəlir ki, ölkə rəhbərləri arasında hər hansı bir səbəbdən susmağa üstünlük verdikləri bir anlaşma var. Bu birincisi. İkincisi odur ki, ATƏT-in Minsk Qrupunun vasitəçilik səyləri olmadan şəxsi təmaslar yaratmaq müsbət nəticə verir. Düşənbəni buna misal göstərmək olar. Buna görə də budəfəki Əliyev-Paşinyan formatı müstəqil məna daşıyır. Amma burada nəzərə almaq lazımdır ki, İrəvanın manevr imkanları da tükənib. Bu mənada, Paşinyanın hansı addımlar atacağı xüsusi maraq doğurur".

Almaniyalı politoloq Aleksandr Rar isə Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində "Madrid prinsipləri"nin dəqiqləşdirilməsi tələbinin Vyanada yenidən gündəmə gəlməsini istisna etmir: "Əliyev-Paşinyan görüşündə "Madrid prinsiplərinin dəqiqləşdirilməsi ətrafında danışıqların aparılması əsas yer tutacaq". Onun sözlərinə görə, bir sıra məsələlər havadan asılı vəziyyətdə qalıb və əlavə izahatlara ehtiyac var: "Bu məsələdə mütəxəssislər çoxdan vahid mövqedən çıxış ediblər. Buna görə də qarşıdakı görüşdə dəqiqləşdirmə ətrafında söhbətlər aparıla bilər. Danışıqlara fasilə verilməsi bir sıra təhlükələri əhatə edir. Buna görə də danışıqlar hər hansı şəkildə davam etdirmək lazımdır. Ancaq bu halda da aprel döyüşlərinədək olan dönəmə geri dönürük. Həmin dövrdə də danışıqlar varmı, yoxmu, ümumi gündəlik varmı, yoxmu, deyə anlamaq olmurdu. Mən düşünürəm ki, ATƏT-in Minsk Qrupu daha ciddi işləməklə tərəfləri qane edən gündəliyin formalaşmasına imkan verməlidir".

Digər rusiyalı politoloq Oleq Kuznetsov isə bildirib ki, əslində, Paşinyan iki seçim arasında qalıb: "Paşinyan bir müddət ölkə daxilində və beynəlxalq arenada uğurla "oynadı", amma indi onun erməni xalqına istədiyi "çörəyi" vermək imkanı yoxdur. Buna görə də heç kim ona kömək etmək istəmir. Ermənistanda müxalif qüvvələrin birləşməsi tamamilə təbii, obyektiv bir prosesdir və siyasi cəmiyyətin həyatına dair ümumi qanunlara tam uyğun gəlir. Buna görə də burda təəccüblü bir şey görmürəm. Keçən ilin mayından etibarən - Paşinyanın Ermənistanda hakimiyyəti ələ keçirdiyi gündən bəri yalnız bir şeyi deyirəm: Paşinyan populist, demaqoq, qədim Roma dövründə olduğu kimi, həmişə çörək və sirk tələb edən kütlənin lideridir. Keçən ilin aprel-may aylarında devrilmiş Qarabağ klanı adlanan Köçəryan-Sarkisyan bu günlərdə ən zəif tərəfdarlarının da yanındadır. Onlar bunu yeni hakimiyyətdən intiqam almaq üçün edir.

Bütün bunları nəzərə alaraq başa düşmək lazımdır ki, xarici siyasətdə Qarabağ klanı həmişə rusiyapərəst mövqeyə sadiqdir, Paşinyan klanı isə açıq-aşkar amerikapərəstdir. Buna görə də bu gün Ermənistan Rusiya və ABŞ arasında qlobal geosiyasi qarşıdurma nöqtəsidir. Və bu qarşıdurmada Rusiya keçən il də məğlub oldu, amma revanş götürmək ümidini itirmir. Buna görə də Moskva Paşinyanın düşmənlərinə lazımi resursları verir və erməni mənşəli Rusiya oliqarxlarını şantaj edir. Rusiya tərəfi öz ərazisində müflis olmaq qorxusu altında erməni əsilli oliqarxları Paşinyana qarşı siyasi fəaliyyət göstərən müxalifətə maddi dəstək göstərərək, Ermənistanın baş nazirini vəzifəsindən kənarlaşdırmağa məcbur edir. Buna görə də bu gün Paşinyan Azərbaycan prezidenti İlham Əliyevlə görüş ərəfəsində rusiyameyilli müxalifətlə Qarabağdan imtina perspektivi arasında qalıb. Paşinyanın vəziyyəti heç ürəkaçan deyil. Bir tərəfdən bəyan etdiyi öhdəlikləri icra etmədiyi üçün rusiyameyilli müxalifətdən, digər tərəfdən rəsmi Bakı ilə istənilən konstruktiv danışıqları ona bağışlamayacaq yerli millətçi və ya ultra-vətənpərvərlər tərəfindən hakimiyyətdən uzaqlaşdırılma təhdidi ilə üzüzədir".

Kuznetsov qeyd edib ki, Paşinyan Dağlıq Qarabağ münaqişəsinin həllində, şahmat dilində desək, suqsvanq vəziyyətindədir və hər bir hərəkəti onun mövqeyini pisləşdirir: "Mən onun bunu yaxşı dərk etdiyindən əminəm, buna görə də "Azərbaycan xalqı ilə sülhə dair birbaşa söhbət" kimi tamamilə çılpaq fikirlər irəli sürür. Paşinyan hazırda həm daxili, həm də xarici siyasətdə çarəsizdir. Buna oxşar bir şey 100 il bundan əvvəl - 1918-ci ilin fevral-mart aylarında Brest-Litovskda bolşeviklərin döyüşçü müxalifətlə apardığı ayrı-ayrı müzakirələr zamanı baş verib. O vaxt Sovet Rusiyasının nümayəndə heyətinin rəhbəri də "nə müharibə, nə sülh" tezisini irəli sürmüşdü, bunun nəylə sonlandığı məlumdur: Alman əsgərləri hücuma keçdi, Gürcüstana gəlib çatdılar. Bundan sonra bolşeviklər özləri üçün tamamilə əlverişsiz şəraitdə sülh müqaviləsi imzaladılar. Mən qorxuram ki, martın 29-da Azərbaycan və Ermənistan prezidentlərinin görüşünün gedişində və nəticələrində bənzər bir şey görəcəyik". Ekspert bu mənada hesab edir ki, Paşinyan üçün indiki şəraitdə Azərbaycanla razılıq əldə etmək Ermənistandan ötrü çox mühümdür.

Eyni mövqeni Qafqazşünasların Elmi Cəmiyyətinin sədri Aleksandr Krılov da sərgiləyir. "EADaily" nəşrinə verdiyi müsahibəsində görüşün gözləntiləri, mümkün proqnozlar və Dağlıq Qarabağ münaqişəsi barədə öz fikirlərini bildirən politoloqun fikrincə, cəbhədə nəzərəçarpan sakitçilik hökm sürür, bu, erməni tərəfinin parçalanmasının davam etməsi və hərbi revanş üçün daha münbit şərait yaranması məqsədilə Azərbaycanın vəziyyəti gərginləşdirmək istəməməsilə bağlıdır: "Vaxtilə Ermənistan söhbətin dövlətlərarası münaqişədən getdiyini qəbul edib və Azərbaycana işğal olunmuş ərazilər faktını sübut etməyə imkan verib". Krılov İrəvanın davranışlarının əsassız olduğunu vurğulayaraq qeyd edib ki, danışıqlar prosesində nəticə əldə olunmasa, savaş qaçılmazdır və bunu İrəvanda yaxşı bilirlər: "Paşinyan bundan əvvəl danışıqlar formatı ilə bağlı elə bir ideya ifadə edib ki, bu, İlham Əliyev üçün qəbulolunmazdır. Yaxud görüşlər həmsədrlərin vasitəsilə növbəti görüş xarakteri ilə davam edə bilər. Danışıqlar prosesində irəliləyiş əldə edilməsi üçün tərəflərdən birinin güzəştə getməyə hazır olması lazımdır. Lakin Əliyev buna getməyəcək, çünki Azərbaycan əraziləri işğal latındadır. Paşinyan müvafiq addım atmasa, ölkəsini yenidən güclü Azərbaycanla savaşa sürükləcəyək".

Beləliklə, yuxarıda səslənən politoloq fikirlərindən aydın olur ki, Ermənistan Qarabağ münaqişəsinin həllini danışıqlar yolu ilə uzatmaq taktikasını daha istfiadə edə bilməyəcək. Ən azı o baxımdan ki, Azərbaycan buna imkan vermək niyyətində deyil. Bakı artıq İrəvanın məsələnin həllində konkret addımlar atmasını istəyir. Ermənistanda hesab edirlər ki, Azərbaycan Vyana görüşündə istəyinə nail olacaq. Burada o fikirlər getdikcə daha çox hakim olur ki, İrəvanın uğursuz siyasəti nəticəsində beynəlxalq aləmdə Azərbaycanın nüfuzu daha da artıb və Dağlıq Qarabağ məsələsində Ermənistan mövqelərini tam şəkildə itirmək üzrədir. Digər tərəfdən nəzərə almaq lazımdır ki, Azərbaycanın, eləcə də beynəlxalq ictimaiyyətin təzyiqləri, Ermənistanın dünyada və regionda həyata keçirilən iri layihələrdən təcrid vəziyyətində qalması, qonşu dövlətlərlə düşmən münasibət ölkəni labüd uçuruma yuvarlayıb. Bütün bunlar erməni xalqına müsibətlər, məhrumiyyətlər və əzab-əziyyətdən başqa heç nə verməyib. Belə vəziyyət də işğalçı ölkənin manevr imkanlarını tükəndirən əsas faktorlar sırasında yer alır. Eyni zamanda, Azərbaycan ordusunun hücum xofu Ermənistanın başı üzərində "Domokl qılıncı" kimi asılıb və düşmən ölkədə böyük əksəriyyət bu vəziyyətdən can qurtarmağa çalışır.

Qeyd edilənlər bir daha təsdiq edir ki, Vyana görüşü Ermənistan üçün son imkan rolunu oynayır. Ekspertlərin fikrincə, görüşdə hamıdan çox Paşinyan razılığın əldə olunmasına cəhd etməlidir. Bu onun hakimiyyətinin möhkəmlənməsi və ümumiyyətlə, erməni dövlətinin və xalqının gələcəyinin aydınlaşması naminə vacibdir. Çünki münaqişənin həlli Azərbaycan və Türkiyə ilə sərhədlərin açılmasına, xarici ticarətin inkişafına, iqtisadiyyatın ayağa qalxmasına, əhalinin güzəranın yaxşılaşmasına birbaşa təsir edə bilər. Məhz bu da Ermənbistanın bir dövlət kimi varlığını davam etdirməsinin əsas şərtləridir. Beləliklə, martın 29-da Vyanada Paşinyan erməni xalqının taleyini həll edə bilər. Özü də, qeyd olunduğu kimi, bu onun son şansıdır. Ermənistan da daxil olmaqla, artıq bütün maraqlı tərəflərə aydındır ki, Azərbaycan ərazi bütövlüyünü bərpa etməyə tam hazırdır: həm danışıqlar yolu ilə, həm də alternativ vasitə kimi müharibə yolu ilə. Sadəcə, Vyanada Ermənistanın davranışlarından sonra Azərbaycanın hansı yoldan istfiadə edəcəyi daha dəqiq şəkildə bəlli olacaq. Bu mənada, Vyana görüşünü Qarabağ məsələsinin həllində mühüm başlanğıc nöqtəsi kimi də dəyərləndirmək mümkündür.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**"Biz hər saat, hər saniyə müharibəyə hazır olmalıyıq". Belə bir açıqlama ilə Ermənistan parlamentinin "Mənim addımım" fraksiyasının deputatı Sasun Mikaelyan çıxış edib. Xatırladaq ki, baş nazir Nikol Paşinyan bu fraksiyanın lideridir. Sasun Mikaelyan isə fikirlərini belə əsaslandırıb: "Danışıqlar lazımdır, çünki müzakirələrsiz məsələlər həll edilmir. Amma erməni tərəfi müharibəyə həmişə hazır olmağa məcburdur.**

# Ermənistan ordusu daha dərin xaosa yuvarlanır...



Ölkəmizin geoloji vəziyyəti elədir ki, biz həmişə hazır olmağa məcburuq. Bundan başqa, Azərbaycan yeni silahlar alır və biz onların rəqibi kimi həmişə müharibəyə hazır olmalıyıq".

Amma erməni mediası və ekspert dairəsi belə deputatın dediklərinə böyük şübhə ilə yanaşır və buna səbəb kimi də orduda artan neqativ halları göstərirlər. Məsələn, qeyd olunur ki, təkcə rəsmi məlumatlarda son 10 gündə erməni tərəfi 3 hərbçisini tirib. Belə ki, martın 26-da işğal altında olan Dağlıq Qarabağda daha bir erməni əsgər ölüb. Bildirilir ki, Qarabağın şimal-şərq istiqamətində yerləşən qanunsuz hərbi hissələrin birinin saxlanma məntəqəsində 1998-ci il təvəllüdlü, müqavilə əsasında xidmət edən Ara Arakelyan ölü tapılıb. Arakelyanın digər hərbi xidmət yoldaşı tərəfindən güllələndiyi üzə çıxıb. Qarabağdakı separatçı rejimin nümayəndəsi Naira Arutyunyanın sözlərinə görə, Arakelyanın xidmət yoldaşı olan kiçik çavuş onun qətlində şübhəli bilinərək saxlanıb. Aparılan araşdırmalar isə, əslində, daha böyük cinayət hadisəsinin baş verdiyini üzə çıxarıb. Hələlik adı və soyadı gizlədilən əslən Ermənistandan olan kiçik çavuş qarabağlılar tərəfindən təhqir edildiyinə görə avtomatla tabor komandiri Sasun Stepanyanı, taborun "Qavroş" ləqəbli qərargah rəisini, əsgərlər Andranik Koşkanyan və Ara Arakelyanı güllələyib. Nəticədə Arakelyan aldığı güllə yaralarından yerindəcə ölüb. Digər 3 nəfər isə yaralanıb. Arakelyanın valideynləri Ermənistan Müdafiə Nazirliyinin qarşısında çıxışlar edərək övladlarının hərbi hissədə məruz qaldıqları dözülməz münasibətdən, ac qalmalarından, geyim və dərmanların çatışmamasından danışıblar. Hadisənin böyüməsindən qorxan nazirlik rəhbərliyi onları yenidən İrəvandan Qarabağa göndərib. Arakelyanın valideynləri, istintaq ədalətli aparılmazsa, sakit qalmayacaqlarını bəyan ediblər. Dörd nəfəri güllələyən əsgər ilkin dindirmədə müstəntiqlərlə söhbətində məhz Ermənistandan olduğu üçün təhqirlərə məruz qalmasına etiraz əlaməti olaraq hadisəni törətdiyini bildirib: "İmkanım olsaydı, hamısını öldürərdim".

Bundan əvvəl isə yenə işğal altında olan Qarabağda erməni əsgərlər Karen Karapetyan və Artak Yegizaryan ölü tapılıb. Qeyd edilənlər hələ rəsmi məlumatlar nəticəsində üzə çıxanlardır və buraya yenə son 10 gün ərzində bir neçə yaralının olması da daxil edilsə, erməni ordusunda xaosun getdikcə dərinləşdiyi daha aydın şəkildə üzə çıxar. Digər tərəfdən, erməni mediası diqqəti bu günlərdə Mehri şəhərində yerləşən hərbi hissədə baş verən olaya da yönəldir. Xatırladaq ki, Ermənistan Müdafiə Nazirliyinin Mehri şəhərində yerləşən hərbi hissələrindən birində 20-dək əsgər zabitlərin onlarla pis rəftarı və döyülmələrinə görə qiyam edərək hərbi hissəni tərk ediblər. Bir müddət sonra əsgərlər komandirin çağırışı ilə geri qayıdıb. 20 əsgərin hamısı cəzalandırılaraq hərbi polisə təhvil verilib.

Ermənistanın Müdafiə Nazirliyinin mətbuat katibi Artsurun Ovannisyan "Facebook" səhifəsində hadisə ilə bağlı məlumatları şərh edib. O, mətbuatda yayılan xəbərləri təkzib edərək qeyd edib ki, nizam-intizamı pozan bir neçə əsgər ayrıca geyimdən və menyudan istifadə etməklə və zabtləri qarət etməklə hərbi hissədə öz qaydalarını tətbiq etməyə cəhd göstərib.

Onun sözlərinə görə, cəhdin qarşısı alınıb və əsgərlərlə yanaşı, zabitlərin də cəzalandırılmasına qərar verilib: "Artıq bir neçə zabit məsələ ilə bağlı istefaya göndərilib".

Qeyd edək ki, Ermənistan ordusunda mütəmadi olaraq əsgərlər zabitlər tərəfindən təhqir olunaraq döyülür. Bunun nəticəsində düşmən ordusunda bir neçə əsgər intihar edib. Təkcə 2018-ci ildə Ermənistan ordusunda özünə qəsd hallarının sayı 21 olub. Ümumilikdə, ötən il orduda ölən əsgərlərin sayı 71-dir. Cari ilin ötən dövrü ərzində isə Ermənistan ordusu 20-ə qədər əsgər itirib. Hüquq müdafiəçisi, Helsinki Vətəndaş Assambleyasının Vanadzor ofisinin rəhbəri Artur Sakunts xatırladır ki, bu günlərdə ABŞ Dövlət Departamentinin yayımladığı Ermənistanda insan hüquqlarına dair illik hesabatda ordudakı ölüm hadisələrinə də yer verilib: "Qeyri döyüş şəraitində ölən hərbi qulluqçuların ölüm hallarının yenidən araşdırılmasını tələb edən bir çox erməni əsgər ailəsi silahlı qüvvələrin keçmiş Baş Qərargah rəisi Movses Hakobyanın ölüm faktlarının gizlədilməsində xüsusi fiqur olduğunu bildirir. 2010-cu ildən biz orduda baş verən ölüm hadisələrinin statistikasını nəşr edirik". Hüquq müdafiəçisi Janna Aleksanyan da bildirib ki, Ermənistan Müdafiə Nazirliyinin də hansı itkilər döyüş itkisi, hansılar isə qeyri-döyüş itkisi hesab olunur deyə dəqiq normativ və meyarları yoxdur. Həmin hesabat məruzədə qeyd edilir ki, mətbuatda yayılan məlumatlara əsasən, hüquq-mühafizə orqanları qeyri-döyüş itkiləri ilə bağlı bəzi cinayət işlərini yenidən qaldırıblar. Hüquq müdafiəçisi Avetik İşxanyan isə müsahibəsində bəzi cinayət işlərinin yenidən qaldırıldığını təqsdiq etsə də, bu cinayət işlərinin gedişatı barədə məlumatı olmadığını bildirib. Söhbət, həmçinin, məlum qara geyimli erməni əsgər analarının bəzilərinin övladlarından da gedir. Ancaq onların mətbuat vasitəsilə iddia etdiyi kimi, açılan cinayət işlərinin istintaqı üzrə heç bir irəliləyiş yoxdur. İndi belə bir ordu ilə Azərbaycana qarşı hansısa müqavimət göstərmək fikri, əslində, Ermənistanın özündə də istehza ilə qarşılanır. Məhz bu səbəbdən mümkün yeni savaş erməni tərəfi üçün ən böyük qorxu sayılır.

***Nahid SALAYEV***

# Erməni əsgərlərin qiyamı ilə bağlı yeni təfərrüatlar üzə çıxdı

**Ermənistanın Mehridə yerləşən hərbi hissəsində bir neçə gün əvvəl baş vermiş qiyamın yeni təfərrüatları üzə çıxıb.**



"Trend"in erməni KİV-inə istinadən verdiyi məlumata görə, belə ki, Mehri alayında müəyyən üstünlüyə malik bir qrup əsgər öz qaydalarını tətbiq etməyə cəhd göstərib. Zabitlər nizam-intizamı bərpa etməyə qərar verəndə isə alay bir neçə əsgərin çağırışına uyğun olaraq hərbi hissənin ərazisini tərk edib və küçələrə çıxıb. Həmin hərbi qulluqçular cəzalandırılıb, bir qismi isə cəza tədbiri kimi Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsinə göndərilib.

Əsgər anaları isə bundan narahat olaraq İrəvanda etiraz aksiyası keçirib və övladlarının hansı səbəbdən Dağlıq Qarabağa göndərilməsi ilə bağlı izahat tələb ediblər.

Martın 28-də Dağlıq Qarabağda erməni hərbi qulluqçunun əsgər yoldaşını güllələyərək öldürməsi faktı da Ermənistan ordusunda özbaşınalığın, dözülməz, idarəolunmaz bir vəziyyətin baş alıb getdiyini göstərir.



## Paşinyan kənd təsərrüfatının çökmə səbəbini ziyanvericilərin boynuna atdı...

**Ermənistanın Baş naziri Nikol Paşinyan hakimiyyətə gəldiyi bir il ərzində kənd təsərrüfatında ciddi enişin olduğunu etiraf edib.**

Baki-xeber.com-un xəbərinə görə, 2018-ci ilin yekunları ilə bağlı martın 28-də keçirilən hökumət müşavirəsində o deyib ki, bu geriləmə əsasən ziyanvericilərlə (!) bağlı olub.

Paşinyan onu da deyib ki, ziyanveriilərdən əlavə, geriləmənin daha bir səbəbi yanlış planlaşdırma və "kölgə" bağları olub ki, bu faktları hökumət artıq aşkara çıxarıb.

Yayılan məlumata görə, Azərbaycan yoxsul ölkələr üçün donor olacaq. Belə ki, Beynəlxalq İnkişaf Assosiasiyasının (BİA) aprel ayında keçiriləcək toplantısında Azərbaycanın yoxsul ölkələrə donor qismində nə qədər vəsait ayıracağı müəyyən olunacaq.

# Dünya Bankı Azərbaycanın qürurverici yeni statusunu bəyan etdi - yoxsul ölkələrə sponsorluq...

## *Əli Əlirzayev: "Bütün bunlar ölkəmizin uğurudur"*




*"Başqa ölkələrə yardım göstərilməsi Azərbaycanın iqtisadi inkişafının göstəricisi olmaqla yanaşı, həm də ölkənin dünyada nüfuzunu artırır"*

Sözügedən məsələ ilə bağlı mətbuata açıqlama verən Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Mersi Tembon yoxsul ölkələrə göstərdiyi dəstək və yardıma görə Azərbaycana minnətdarlığını bildirib: "Azərbaycan da 1992-ci ildə Dünya Bankına yenicə qoşulanda yoxsul ölkə idi. Bu gün isə Azərbaycan dövləti bir çox sahələrdə əhəmiyyətli dərəcədə uğurlar əldə edib və yoxsul ölkələrə öz yardımını təklif edir. Biz buna görə çox şadıq və Azərbaycana minnətdarıq".

Azərbaycanın Dünya Bankının strukturuna daxil olan Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (BYİB) və Beynəlxalq Maliyyə Korporasiyası (BMK) kimi institutlarda səhmlərinin artırılması məsələsinə gəldikdə, M.Tembon qeyd edib ki, ölkə buna öz razılığını verib və zəruri sənədləri imzalayıb: "Ən əsas məsələ razılaşmanın əldə olunması və Azərbaycanın razılığının alınması idi. Buna da nail olmuşuq. Ancaq biz ölkənin öz payını nə qədər artıracağını bilmirik. Bu, uzun prosesdir və 10 ilə yaxın vaxt apara bilər".

Bütün hallarda, Azərbaycanın yoxsul ölkələrə donor olması ölkənin iqtisadi inkişafının göstəricisidir. Nəzərə almaq lazımdır ki, 90-cı illərdə məlum səbəblərlə əlaqədar Azərbaycan dünyanın maliyyə qurumlarından borc alırdı. Azərbaycanda aparılan uğurlu iqtisadi siyasətin nəticəsi olaraq ölkə kredit alan ölkədən kredit verən dövlətə çevrildi. Bir sıra dövlətlər iqtisadi layihələri həyata keçirmək üçün Azərbaycandan kredit alırlar. Azərbaycanın dəstəyilə böyük layihələr həyata keçirilir. Bütün bunlarla yanaşı, Azərbaycan dünyada humanitar xarakterli tədbirlərdə də fəal iştirak edir. O baxımdan, Azərbaycanın yoxsul ölkələrə donor olmasını ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən iqtisadçı-alim Əli Əlirzayev buna bir neçə aspektdən yanaşdı: "Bunun həm iqtisadi, həm də mənəvi tərəfləri var. Əvvəla nəzərə almaq lazımdır ki, Azərbaycan xalqı xeyirxahdır, yardım etməyi sevəndir. Tarixən bu belə olub. Məsələnin iqtisadi tərəfinə gəldikdə isə, reallıq ondan ibarətdir ki, son illər Azərbaycanın iqtisadi imkanları xeyli artıb. Azərbaycan iqtisadi və digər parametrlərə görə regionda lider mövqeyinə malikdir. Nəzərə almaq lazımdır ki, Azərbaycanda yoxsulluğun səviyyəsi 5 faizə düşüb. Elə ölkələr var ki, orada yoxsulluğun səviyyəsi 40 faizdir. Belə olan halda, Azərbaycanın həmin ölkələrə kömək etməsi, daha konkret desək, donor qismində çıxış etməsi müsbət haldır. Başqa ölkələrə yardım göstərilməsi Azərbaycanın iqtisadi inkişafının göstəricisi olmaqla yanaşı, həm də ölkənin dünyada nüfuzunu artırır. Hesab edirəm ki, bu çox önəmli faktordur. Belə humanitar xarakterli missiyalarda iştirak etmək ölkənin nüfuzunun artmasına xidmət edir. Nəzərə almaq lazımdır ki, vaxt var idi Azərbaycan da yoxsul ölkələr sırasında idi. Ermənistanla müharibə nəticəsində ölkədə qaçqın və məcburi köçkünlərin sayı xeyli artmışdı. Onlar çox çətin şəraitdə yaşayırdılar.

Şükürlər olsun ki, həmin dövrlə müqayisədə Azərbaycan bir sıra çətinliklərin öhdəsindən gəldi. Ona görə də bütün bunlar Azərbaycanın uğurudur".

***Vidadi ORDAHALLI***

Prezident İlham Əliyevin uğurlu sosial siyasəti nəticəsində ölkəmizdə daim güclənən sosial təminat sisteminin əhatə etdiyi əhali qruplarından biri də uşaqlardır. Ölkədə 10-dan çox sosial müavinət növü var ki, məhz uşaqların sosial müdafiəsinə yönəlib.

# Unikal Azərbaycan sosial təcrübəsi - uşaqların müdafiəsinə xidmət edən 10-dan çox müavinət var

## *İlqar Hüseynli: "Son illər, dünyada olduğu kimi, Azərbaycanda da uşaqların ehtiyac xərcləri artıb"*



*"... ölkədəki demoqrafik göstəricilərə də müsbət təsir edəcək"*

Rəsmi məlumata görə, hazırda sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqlar, şəhid ailələrinin və müharibə əlillərinin, beşdən çox uşağı olan qadınların, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının uşaqları, valideyn himayəsindən məhrum olmuş uşaqlar aylıq sosial müavinətlə təmin edilirlər.

Həmçinin, aztəminatlı (ünvanlı dövlət sosial yardımı alan) ailələrin 1 yaşadək uşaqlarına aylıq sosial müavinət, yeni doğulan uşaqlara görə isə birdəfəlik müavinət ödənilir. Çernobıl AES qəzası nəticəsində I və II qrup əlil olmuş, yaxud vəfat etmiş valideynlərin uşaqlarına, habelə Çernobıl qəzası nəticələrinin aradan qaldırılması iştirakçılarının dispanser qeydiyyatında olan uşaqlarına da müavinət verilir.

Ailə başçısını itirmiş ailələrə də aylıq sosial müavinət və ya əmək pensiyası ödənilir ki, həmin ailələrin üzvlərinin böyük əksəriyyətini, habelə ünvanlı sosial yardım alan ailələrin üzvlərinin 50 faizdən çoxunu uşaqlar təşkil edir. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumları (himayəçiləri) aylıq sosial müavinətlə təmin edilirlər. Sığortaolunanlara da üç yaşınadək uşaqlara qulluğa görə müavinət ödənilir.

Dövlət başçısının 25 fevral 2019-cu il tarixli Sərəncamı bu istiqamətdə növbəti və əhəmiyyətli addımın atılmasına imkan verib. Belə ki, sərəncama əsasən, aprelin 1-dən sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqlar üçün müavinətin məbləği 82 manatdan 150 manata çatdırılmaqla, həmin uşaqlara qulluq edənlər üçün də Prezidentin aylıq təqaüdü (50 manat) təsis edilib. Eyni zamanda, beşdən çox uşağı olan qadınların hər uşağına görə müavinət 33 manatdan 55 manata, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının uşaqları üçün hər uşağa görə müavinət 68 manatdan 100 manata, uşaqların qəyyumları (himayəçiləri) üçün müavinət 61 manatdan 100 manata, ailə başçısını itirməyə görə müavinət hər ailə üzvü üçün 68 manatdan 80 manata, yeni doğulan uşaqlara görə birdəfəlik müavinət 109 manatdan 200 manata çatdırılıb.

Uşaqların sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı son sərəncam verilən sosial müavinətlərin həcmini artırmaqla yanaşı, sosial müavinət növlərinin sayını da artırdı. Görünən odur ki, bu istiqamətdə həyata keçirilən kompleks tədbirlər uşaqların sağlam və təminatlı böyüməsinə xidmət edir. Bu baxımdan görülən işləri ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən ekspert İlqar Hüseynlinin sözlərinə görə, uşaqlara verilən sosial müavinətlərin həcminin və onların növlərinin artırılmasının bir sıra müsbət tərəfləri var: "Uşaqların sosial müdafiəsinin gücləndirilməsi məsələləri zaman-zaman gündəmdə olub. Son illər, dünyada olduğu kimi, Azərbaycanda da uşaqların ehtiyac xərcləri artıb. Bura uşaq yeməkləri daxil digər məsələlər daxildir. Yeni doğulan və bütövlükdə uşaqların sosial hüquqlarının qorunması, maddi təminatlarının yaxşılaşdırılması istiqamətində müavinətlərin davamlı olaraq artırılması müsbət haldır. O cümlədən, yeni müavinət növlərinin tətbiqi bu istiqamətdə müsbət tendensiyaların özünü göstərməsindən xəbər verir. Bu, ailələrin sosial imkanlarının artırılması istiqamətində dönüş yarada bilər. Bununla bağlı verilən qərar uşaqların sosial müdafiəsini yaxşılaşdırmaqla yanaşı, ölkədəki demoqrafik göstəricilərə də müsbət təsir edəcək. O baxımdan, uşaqların sosial müdafiəsi ilə bağlı sosial müavinət növlərinin artması çox yaxşı haldır. Hesab edirəm ki, bu yöndə görülən tədbirlərin bundan sonra stimullaşdırıcı əhəmiyyəti artacaq. Belə sosial imtiyazlar çoxuşaqlı ailələrə marağı artıracaq. Hansı ki, neçə ildir bu sahədə müəyyən problemlər yaşanırdı. Ümumən sözügedən məsələ bu sahədə bir sıra problemlərin həllinə öz müsbət təsirini göstərəcək".

***Vidadi ORDAHALLI***

**Dönər xüsusilə də gənclərin, o cümlədən tələbələrin gündəlik istehlak etdiyi qidalardan biridir. Bununla belə, dönərlə əlaqədar qida təhlükəsizliyi şərtlərini bilmək çox vacibdir. Çünki düzgün hazırlanmayan dönər insan sağlamlığına ziyandır.**

# Qida Təhlükəsizliyi Agentliyi nəhayət tərpəndi - dönər bişirən çirkli oğlanları bir daha görəcəyikmi...

***Rasif Bağırov:** "Dönərxanalarda insanları xəstəliyə yoluxduracaq..."*



*"Tibbi müayinə əsasında onların hansısa xəstəlik daşıyıcısı olub-olmadığı müəyyən ediləcək"*

Qida Təhlükəsizliyi Agentliyinin apardığı araşdırmalar nəticəsində məlum olub ki, dönər istehsalı zamanı insan sağlamlığı üçün aşağıdakı təhlükəli mikrobioloji risqlər meydana gələ bilər: Hazırlanma və istehsal sahəsində sanitariya-gigiyena normalarına riayət edilməli, əllərin mütəmadi yuyulması məqsədilə sahədə yuma çanağı, sabun və dezinfeksiyaedici maddə olmalıdır. Təmizlik məqsədilə içməli sudan istifadə olunmalıdır.

Dönər hazırlayan şəxslər üçün xüsusi qayda müəyyən olunub. Belə ki, bu şəxslər mütəmadi tibbi müayinədən keçməli və tibbi kartla təmin edilməlidirlər. Həmçinin, işçi şəxsi gigiyena qaydalarına riayət etməli, iş sahəsində təmiz iş geyimi, bone, əlcəkdən istifadə etməlidir.

Dönər hazırlayanlar üçün xüsusi qaydanın müəyyən olunmasını ekspertlər də təqdir edirlər. Onların fikrincə, bu gün istənilən şəxs dönər hazırlaya bilər. Həmin insanların sağlıq durumu yoxlanılmır, gigiyenik qaydalara riayət etmirlər.

Həkim-ekspert Rasif Bağırov bizimlə söhbətində qeyd etdi ki, dönərxanalarda insanları xəstəliyə yoluxduracaq olan bir çox səbəb var: "Bəzi dönərxanalar var ki, içərisində sanitar qovşağı mövcud deyil. Antigigiyenik şəraitdə təbii ehtiyaclarını ödəyən dönərçi əllərini yumadan işinə davam edir. Bunu istənilən şəxs müşahidə edə bilər. Eyni zamanda, dönərxana işlədənlər geyimlərinə də diqqət etmirlər. Baxırsan ki, əli ilə burnunu silir, sonra da əlini üstünə çəkib dönər kəsir. Dönərçinin xəstə olduğu halda işinə davam etməsi halının da şahidi olmuşam. Üstəlik də əskinaslar məsələsi çox faciəvidir. İnsanlar avtobuslarda tutacaqlardan tutub sonra əllərini ciblərinə salaraq pul çıxarırlar. Olar ki, heç pulda hansısa mikrob olmaz, avtobusun tutacağında olar və bunu şəxs əlini cibinə salaraq pula da keçirər. Əksər xəstəliklərin xarici mühitə qarşı davamlılığı zəifdir. Ona görə də insanlar bu cür hallarda ciddi xəstəliklərə yoluxmurlar. Lakin davamlı xəstəliklər də var ki, bunlar insanlar üçün olduqca təhlükəlidir. Məsələn, vərəmli xəstədir və əlini ağzına tutaraq öskürür. Sonra da həmin əllə pulu çıxarıb dönərçiyə verir. Deməli, onun xəstəliyi həm dönərçiyə, həm də ondan dönər alanlara keçə bilər. Bu vasitə ilə ən çox yayılmış xəstəliklər mədə-bağırsaq infeksiyalarıdır. Heç olmasa o, əlindəki əlcəyi dəyişib, pulu başqa əlcəklə almalıdır. Ancaq görürük ki, əksər dönərxanalarda sürətli işləmək üçün heç bir gigiyena qaydalarına əməl etmirlər. Çalışırlar ki, çox dönər düzəldib, çox qazansınlar. İnsanlar özləri bu məsələdə diqqətli olmalı, haradan, kimdən gəldi dönər almamalıdırlar. Dönərçi bütün bu kimi gigiyena qaydalarına həm də özünün sağlamlığına görə diqqət etməlidir".

Həmsöhbətimiz onu da vurğuladı ki, aidiyyəti qurumlar mütəmadi olaraq dönər hazırlayanları tibbi müayinədən keçirməlidirlər: "Tibbi müayinə əsasında onların hansısa xəstəlik daşıyıcısı olub-olmadığı müəyyən ediləcək. Bu səbəbdən də dönərçilərin tibbi müayinədən keçməsini təqdir edirəm".

*Günel CƏLİLOVA*

---

**Son bir ildə müəllimlərin işə qəbulu ilə bağlı bir sıra yeniliklər baş verib ki, bunlar da onların xeyrinə olub. Müəllimlərin işə qəbulu sahəsində Təhsil Nazirliyi tərəfindən həyata keçirilən layihələr orta ümumtəhsil məktəblərinin savadlı müəllim kontingenti ilə təmin olunmasına müsbət şərait yaradır.**

# Nazirliyin növbəti dinamik layihəsi - orta məktəb müəllimləri ilə daimi əmək müqaviləsi prosesi başladı...

***Kamran Əsədov:** "Müəllimlərlə müddətsiz əmək müqaviləsinin bağlanması məqsədilə artıq ikinci ildir daimiləşdirmə proseduru müsabiqə yolu ilə həyata keçirilir ki, bu da olduqca müsbət haldır"*



*"...namizədlərin müsahibəyə buraxılması üçün bir neçə meyar nəzərə alınır"*

Məlum olduğu kimi, müəllimlərlə müddətsiz əmək müqaviləsinin bağlanması məqsədilə yeni müsabiqəyə start verilir. Respublikanın ümumtəhsil müəssisələrində müddətli əsaslarla çalışan müəllimlərlə müddətsiz əmək müqaviləsinin bağlanması məqsədilə yeni müsabiqə keçiriləcək.

Təhsil Nazirliyinin yaydığı məlumata görə, Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun nəzdində fəaliyyət göstərən İnsan Resursları Mərkəzi tərəfindən keçirilən müsabiqədə iştirak etmək istəyən namizədlər cari ilin 1-5 aprel tarixlərində müvafiq saytda qeydiyyatdan keçə bilərlər.

Bildirilənə görə, sözügedən müsabiqələrdə 2017-2018-ci və 2018-2019-cu tədris illəri üçün keçirilmiş müəllimlərin işə qəbulu müsabiqəsində zəruri keçid balını toplayan, pedaqoji istiqamətlər üzrə orta ixtisas və ya ali təhsilli, tutulmayan və ya yeni yaranan vakant yerlərə müddətli əmək müqaviləsi ilə işə qəbul edilmiş müəllimlər iştirak edə bilərlər.

Qeyd edək ki, həvəsləndirmə tədbirləri tətbiq olunmayan müəssisələrə fiziki tərbiyə, musiqi və təsviri incəsənət fənləri üzrə keçid balı 42, digər fənlər üzrə 48, həvəsləndirmə tədbirləri tətbiq olunan müəssisələrə isə bütün fənlər üzrə 36 bal müəyyən edilib.

Müəllimlərlə müddətsiz əmək müqaviləsinin bağlanması məqsədilə yeni müsabiqə keçirilməsi məsələsinə müsbət yanaşan tarix üzrə fəlsəfə doktoru, tanınmış təhsil eksperti Kamran Əsədov "Bakı-Xəbər"ə bildirdi ki, bu, mövcud sahədə neqativ halların qarşısını alacaq. "İlk növbədə qeyd edim ki, 2017-2018-ci və 2018-2019-cu tədris illəri üçün keçirilmiş müəllimlərin işə qəbulu müsabiqəsində zəruri keçid balını toplayan, pedaqoji istiqamətlər üzrə orta ixtisas və ya ali təhsilli, tutulmayan və ya yeni yaranan vakant yerlərə müddətli əmək müqaviləsi ilə işə qəbul edilmiş və müddətli əsaslarla çalışan müəllimlərlə müddətsiz əmək müqaviləsinin bağlanması məqsədilə artıq ikinci ildir daimiləşdirmə proseduru müsabiqə yolu ilə həyata keçirilir ki, bu da olduqca müsbət haldır. Çünki buna qədər qeyd olunan proses yerli rayon təhsil şöbələri tərəfindən həyata keçirilirdi ki, o zaman da müəyyən neqativ hallar baş verirdi. Vacib bir məqamı qeyd edim ki, həvəsləndirmə tədbirləri tətbiq olunmayan müəssisələrə fiziki tərbiyə, musiqi və təsviri incəsənət fənləri üzrə keçid balı 42, digər fənlər üzrə 48, həvəsləndirmə tədbirləri tətbiq olunan müəssisələrə isə bütün fənlər üzrə 36 bal müəyyən edilib.

Yenə də qeyd edim ki, 2 ildir tətbiq edilən yeni qaydanın əhəmiyyəti müddətli müqavilə ilə işə qəbulun mərkəzləşdirilməsidir. Əvvəllər müddətli müqavilə ilə işə qəbulu yerli təhsili idarəetmə orqanları həyata keçirirdilər. Artıq bu da mərkəzləşdirilmiş qaydada nazirlik tərəfindən həyata keçiriləcək.

Müraciət edən müəllimlərə razılıqların verilməsi və namizədlərin müsahibəyə buraxılması üçün bir neçə meyar nəzərə alınır. Birincisi, 2017 və ya 2018-ci ildə keçirilən müəllimlərin işə qəbulu üzrə müsabiqədə müvafiq keçid balını toplayan, pedaqoji istiqamət üzrə ali və ya orta ixtisas təhsili olanlar müsabiqəyə buraxılır. Ən vacib meyarlardan biri də odur ki, müəllimlərin işlədiyi və daimiləşmək istədiyi yer 2018-ci ildə keçirilən müsabiqədə vakant yerlər siyahısında olub. Yəni müsabiqə nəticəsində həmin yerləri bütün vətəndaşlar görüblər".

K.Əsədov vurğuladı ki, düzdür, 2018-ci ildə bu meyarlardan kənara çıxılma hallar olub, bu mənada ki, burada bəzi fənlərdə istisnalar nəzərə alınıb. O qeyd etdi ki, ibtidai sinif, təsviri incəsənət, texnologiya, musiqi və fiziki tərbiyə fənlərində müsabiqəyə çıxarılmayan vakant yerlərə daimiləşdirilmə aparılıb. "Həmin fənlər üzrə namizədlərin vakant yerləri tutma faizi, demək olar ki, bütün illər üzrə digər fənlərlə müqayisədə aşağı olur. Həmin fənlər üzrə vakant yerlər qalır və hər dəfə Təhsil Nazirliyi həmin yerlərə müddətli müqavilə ilə işə qəbul etməyə məcbur olur.

Bütün hallarda, bu yeniliyi təhsilin inkişafı, əlçatanlığı üçün uğurlu hesab edirəm"- deyə K.Əsədov vurğuladı.

*İradə SARIYEVA*

# Bakını restoran tüstüsünə boğan sahibkarlar təzə bəhanə tapıb, Ekologiya Nazirliyinin məmurları isə üzgörənlik edir...

**Hamıya bəllidir ki, ictimai iaşə obyektlərinin yerləşdiyi ərazilərdə, xüsusən şənbə və bazar günlərində qoxu ilə müşayiət olunan tüstü insanlarda diskomfort yaradır, vətəndaşların çoxsaylı şikayət və narazılığına səbəb olur. Bakı şəhərinin müxtəlif rayonlarında fəaliyyət göstərən ictimai iaşə obyektləri, restoran, kafe, şadlıq sarayları tərəfindən atmosferi tullantılarla çirkləndirmə, yerləşdikləri ərazilərdə, xüsusilə sakinlərin kütləvi istarahət yerlərində ətraf mühitə ziyan vurmaları vətəndaşları narahat edir.**

## *Eyyub Hüseynov: "Ekologiyaya zərər yetirən, havanı çirkləndirən şadlıq evləri bağlanmalıdır"*

Məlum olduğu kimi, bir müddət öncə Ekologiya və Təbii Sərvətlər Nazirliyi Bakıda havanın çirklənməsində rol oynayan restoran və kafe sahiblərinə ciddi xəbərdarlıq edərək, bu obyektlərdən çıxan tüstünün zərərsizləşdirilməsi üçün xüsusi avadanlıqların quraşdırılması ilə bağlı tapşırıq verdi. Eləcə də xəbərdarlıqda bu qaydalara əməl etməyən şadlıq sarayları və restoranların cərimələnməsi də ciddi vurğulanırdı.

Hətta Prezident İlham Əliyev də havanı çirkləndirən şadlıq evlərinə ciddi xəbərdarlıq etmişdi. Məlumat üçün bildirək ki, oktyabrın 10-da Nazirlər Kabinetinin 2018-ci ilin 9 ayı ərzində sosial-iqtisadi inkişafın yekunlarına həsr olunmuş iclasında Prezident İlham Əliyev deyib ki, havanı çirkləndirən məişət obyektlərinə ciddi xəbərdarlıq edilib: "Axsam saatlarında Bakı şəhərini tüstü bürüyür. Şadlıq evlərində tüstü təmizlənmədən havaya sovrulur. Ona görə çox ciddi xəbərdarlıq edilib, kim əməl etməyəcəksə, o şadlıq evinin, məişət obyektinin qapısı bağlanacaq. Mən tapşırmışam ki, bunun üçün hüquqi əsaslar hazırlansın. Bildiyimə görə, birinci xəbərdarlıqdan sonra bir çox məişət obyektləri təmizləyici qurğuları quraşdırmağa başlayıblar. Onların hamısına məsləhətim ondan ibarətdir ki, bu işi tezləşdirsinlər. Çünki ikinci xəbərdarlıq olmayacaq, bir də görəcəklər ki, əldən çıxdı. Ona görə tezliklə bütün böyük-kiçik məişət obyektlərində havanı çirkləndirən, havaya tüstü, kanserogen buraxan obyektlərdə təmizləyici qurğular quraşdırılmalıdır, müvafiq qurumlar monitorinq aparmalıdır. Mən Bakı Şəhər İcra Hakimiyyətinə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə göstəriş verdim ki, mənə dərhal məlumat verilsin və dərhal ölçü götürüləcək".



*"Prezidentin xəbərdarlığına əməl etməyən, nazirliyin göstərişinə əhəmiyyət verməyən şadlıq evlərinin adları tam şəkildə ictimaiyyətə açıqlansın"*

Prezidentin məlum tapşırığından sonra Ekologiya və Təbii Sərvətlər Nazirliyi şadlıq evləri ilə bağlı monitorinq həyata keçirdi. Hansı restoran və ya şadlıq evində hava təmizləyən qurğu yox idisə, onlara bu avadanlığın quraşdırılmasının vacibliyi bildirilmişdi. Buna əməl etməyən şadlıq evlərinin bağlanacağı nəzərə çatdırılmışdı. Tapşırıqdan bir müddət sonra bəzi restoran, şadlıq evi və ya iaşə obyektləri məkana hava təmizləyici qurğu aldılar, bəziləri isə Prezidentin tapşırığına məhəl belə qoymadı. Restoranlar olan küçədən keçərkən ətrafı tüstü qoxusu yenə də bürüyür. Şadlıq saraylarından çıxan tüstü ətrafda yaşayan sakinləri narahat edir. Bu mənzərə daha çox şadlıq evlərinin sıx yerləşdiyi Nizami, Xətai və Binəqədi rayonlarında hökm sürür.

Qeyd edək ki, eyni mənzərə hər axşam Nizami rayonu Bəkir Çobanzadə küçəsində, eləcə də Binəqədi rayonunun şadlıq evləri cəmləşən küçələrində də yaşanır.

Şadlıq evlərinin sahibləri iddia edirlər ki, onlar obyektdə müasir standartlara uyğun olan təmizləmə cihazları quraşdırıblar. Müəyyən zaman keçdikdən sonra həmin avadanlıqların filtri yenilənmədiyi üçün, tüstü normadan artıq çıxır. Restoran sahibləri qeyd edirlər ki, yeni filtrlər quraşdırılandan sonra ətrafda yaşayan vətəndaşlar heç bir tüstü müşahidə etməyəcəklər.

Ancaq ekspertlər isə iddia edirlər ki, şadlıq evlərinin, demək olar ki, əksəriyyətində hava təmizləyici qurğu quraşdırılmayıb. Onlar monitorinq zamanı adıçəkilən qurğunun dəyişdirilmək üçün çıxarıldığını bildirirlər. Ancaq, əslində, qurğu quraşdırılmayıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nümayəndəsi isə media nümayəndələrinə açıqlamasında qeyd edib ki, paytaxtın müxtəlif yerlərində son 10 gündə avadanlıq quraşdırılsa da, normadan artıq tüstü xaric edən 10-dan çox şadlıq sarayı müəyyən edilib və onlara vəziyyəti dəyişmək üçün 24 saat müddətinə məcburi göstəriş verilib. Elə "Təbrik" restoranı da xəbərdarlıq edilən obyektlərin arasındadır: "Bakı, Abşeron və Sumqayıtda 600-dən çox şadlıq evi var və onların hamısını bir gündə monitorinq etmək fiziki olaraq mümkün deyil".

Maraqlıdır, qoyulan tələblərə əməl etməyən çoxlu sayda şadlıq evi olduğu halda, niyə məhz "Təbrik" restoranının adı çəkilir. Yaxşı olar ki, hava təmizləyici qurğu quraşdırmayan digər restoranların da adı ictimaiyyətə tam şəkildə açıqlansın. Beləliklə, əhali həmin məkanlara getməkdən imtina edər.

Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov bizimlə söhbətində qeyd etdi ki, restoranlar və şadlıq sarayları ekologiyaya ziyan vururlar. Bu sahədə yaşanan problemi həll etmək üçün dövlət orqanları müəyyən işlər görürlər.

Onun sözlərinə görə, görüləcək tədbirlər ətraf mühitin çirklənməsinin qarşısının alınmasına və insanları narahat edən halların aradan qaldırılmasına təsir edəcək: "Bu işdə əhalinin fəallığı lazımdır. Əgər əhali elə yerləri boykot etsə, dövlət orqanlarının qərarları asanlıqla yerinə yetirilər. AİB ETSN-nin cərimələdiyi və xəbərdarlıq etdiyi şadlıq evi və restoranlardan əhalinin imtina etməsi üçün iş aparacaq".

Birlik sədri qeyd etdi ki, havanı çirkləndirən iaşə obyektlərinə qarşı maliyyə sanksiyası tətbiq oluna bilər: "Yaxşı olar ki, atmosferi çirkləndirən restoran və ya şadlıq evlərinin adı tam şəkildə ictimaiyyətə açıqlansın. Bir-iki restoranın adı deyil, Prezidentin xəbərdarlığına əməl etməyən, nazirliyin göstərişinə əhəmiyyət verməyən şadlıq evlərinin adları tam şəkildə ictimaiyyətə açıqlansın. Eyni zamanda, əhali həmin məkanlarda hər hansı bir məclis təşkil etməsin. İctimai qınaq olarsa, bu sahədə vəziyyət müsbətə doğru dəyişər".

Həmsöhbətimiz onu da vurğuladı ki, ekologiyaya zərər yetirən, havanı çirkləndirən şadlıq evləri bağlanmalıdır. Çünki o şadlıq evləri ətrafda yaşayan sakinlərin sağlamlığına təsir edirlər. Müasir standartlara cavab verməyən, təmizləyici qurğuları olmayan ictimai iaşə obyektləri bağlanmalıdır: "Çünki o obyektlərə dəfələrlə qeyd olunan qurğunun quraşdırılması ilə bağlı xəbərdarlıq olunub. Ancaq onlar xəbərdarlığa əhəmiyyət verməyiblər. O üzdən, bu tip məkanların fəaliyyəti dayandırılmalıdır".

***Günel CƏLİLOVA***

## "Yeni Fikir" startap müsabiqəsi 6-cı dəfə keçirilir

**Azərbaycanda innovasiya ekosisteminin formalaşmasında, o cümlədən startapların inkişafında xüsusi rol oynayan Bakı Mühəndislik Universiteti (BMU) bu sahədə BP şirkəti ilə əməkdaşlıq edir. Belə ki, 6-cı dəfə keçirilən "Yeni Fikir" startap müsabiqəsi BMU-nun təşkilatçılığı və BP-nin maliyyə dəstəyi ilə həyata keçirilir.**

"Yeni Fikir" startap müsabiqəsi innovativ sahibkarlığın (startapların, texnosahibkarlığın və ya biznes təşəbbüskarlığının) inkişafını dəstəkləyən layihədir. Müsabiqə Azərbaycanda həyata keçirilən ən böyük startap müsabiqəsi hesab olunur. İndiyə kimi 5 dəfə keçirilən "Yeni Fikir" startap müsabiqəsində 842 startap layihə qiymətləndirməyə cəlb edilib ki, onlardan 100-dən çoxunun inkişafına bilavasitə dəstək verilib. 35 layihənin inkişafı isə toxum investisiya və inkubasiya xidmətləri ilə dəstəklənib.

BP şirkəti "Yeni Fikir VI" startap müsabiqəsini maliyyələşdirməklə Azərbaycanda aparılan islahatların ən aktual istiqmətlərindən hesab olunan innovativ ekosistemin güclənməsinə ciddi töhfələr verməyi hədəfləyib.

BP-nin maliyyə dəstəyi ilə keçiriləcək "Yeni Fikir VI" startap müsabiqəsi, əvvəlki müsabiqələrdən fərqli olaraq, həm də ekosistemə yeni startapların daxil olmasını təmin edir. Belə ki, ayrılan maliyyə dəstəyi ilə keçiriləcək təlim və mentorluq proqramları ilə mövcud startapların güclənməsini təmin etməklə yanaşı, yeni startap layihələrinin formalaşması və inkişafı da dəstəklənir. Bu məqsədlə BMU ilə yanaşı, Sumqayıt Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Texnologiya Universiteti (UTECA) və digər ali təhsil müəssisələrində, eləcə də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "İNNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzi və digər təşkilatlarda təlim və mentorluq tədbirləri keçirlir. Təlim və mentorluq proqramlarına, həmçinin layihələrin qiymətləndirilməsi prosesinə innovativ ekosistemdə tanınmış mütəxəssislər və peşəkarlar cəlb olunub.Bu cür tədbir və yanaşmalar, mövcud startapların güclənməsinə səbəb olmaqla yanaşı, yeni startapların da formalaşamasına köməklik edir.

Müsabiqə aşağıdakı ardıcıllıqla həyata keşirilir:

- Birinci mərhələdə, yuxarıda qeyd olunduğu kimi, startapların formalaşması və inkişafına dəstək verilir. Bu müddət ərzində, həmçinin startap layihələrinin Müsabiqəyə qeydiyyatı aparılır. Layihələrin qeydiyyatı prosesi yenifikir.az elektron səhifəsi vasitəsilə yerinə yetirlir. Layihələrin qeydiyyatı zamanı qarşıya qoyulan əsas meyarlar isə, iddia olunan ideyanın innovativliyi, biznes strategiyası (modeli) və layihə komandasının idddianın təmin olunmasına uyğunluq dərəcəsidir.
- Növbəti mərhələdə qeydiyyata alınmış startap layihələrin ilkin qiymətləndirilməsi aparılır. Qiymətlənirmə prosesində əsas götürülən meyarlar layihələrin qeydiyyatı zamanı qarşıya qoyulan suallara uyğun aparılır. İlkin qiymətləndirmənin nəticələrinə uyğun olaraq yarımfinalçılar seçilir.
- Yarımfinal mərhələsinə hazırlıq prosesində yarımfinala vəsiqə qazanmış layihə komandalarının gücləndirilməsi və inkişafı həyata keçirilir. Bu proses ekosistemin aparıcı mütəxəssislərinin təqdimatında, təlim və mentorluq xidmətlərinin verilməsi ilə baş verir. Ümumi təlimlərlə yanaşı, hər bir layihə komandası mentorluq xidmətləri ilə də gücləndirilir.
- Növbəti addım isə Yarımfinal tədbiridir ki, bu zaman yarımfinalçılar Münsiflər Heyəti qarşısında təqdimatlar edərək, yarışacaqlar. Bu zaman ən güclü startap komandaları final mərhələsinə vəsiqə qazanacaqlar.
- Finala mərhələsinə hazırlıq prosesində fınala vəsiqə qazanmış layihə komandaları spesifik seçilən təlim və mentorluq xidmətləri ilə daha da gücləndiriləcək. Bu zaman layihələrin real bazara hazırlanması ilə yanaşı, investorların marağını çəkə bilmək üçün addımlar atılacaq.
- Finalda yarışan startap komandalardan ən perspektivli 5 layihə seçilir və qalib olaraq elan edilir. Ən perspektivli startap layihələri kimi qalib komandalar investorlara və geniş ictimaiyyətə təqdim ediləcək.

Qalib gəlmiş 5 startap layihələrinin şirkətləşməsi prosesi inkubasiya və ya akselerasiya proqramlarının tətbiqi ilə aparılacaq. İnkubasiya və ya akselerasiya proqramlarının tətbiqi əsasən BMU Texnoparkı və "İnnoland" İnnovasiya Mərkəzində təmin edilməsi nəzərdə tutulub. Bu zaman layihələrin şirkətləşməsi yolunda zəruri addımlar da BP-nin ayırdığı maliyyə imkanları ilə dəstəklənəcək. Belə ki, BP-nin ayırdığı maliyyə dəstəyi hesabına 1-ci yeri qazanan startap komandası 8000 manat, 2-ci yeri qazanan tsratap komandası isə 6000 manat maliyyə dəsətyi alacaq.

Qeyd edək ki, "Yeni Fikir VI" startap müsabiqəsi 7 ay müddətində (mart-senybar) həyata keçirilir.

"Yeni Fikir VI" startap müsabiqəsi haqqında ətarflı informasiya almaq, həmçinin startap layihələrinin qeydiyyatı üçün yenifikir.az elektron səhifəsindən istifadə etmək olar.

**Forma № 1S**

Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin 5 dekabr 2008-ci il İ-125 №-li əmri ilə təsdiq edilmişdir.

**SIĞORTAÇININ (TƏKRARSIĞORTAÇININ) və HÜQUQİ ŞƏXS SIĞORTA BROKERİNİN MÜHASİBAT BALANSI (rüblük və illik)**

Sığortaçının (təkrarsığortaçının ) və ya sığorta brokerinin adı: Standard Insurance

**Hesabat dövrü ____________________01.01.2019 нл____________________**

*manatla*

| | AKTİVLƏR | Sətr kodu | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|---|---|
| | I.UZUNMÜDDƏTLİ AKTİVLƏR | | | |
| A1 | Torpaq, tikili və avadanlıqlar | | 2 262 265,30 | 387 942,03 |
| A2 | Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması | | 902,00 | 0,00 |
| A3 | Daşınmaz əmlaka investisiyalar | | | |
| A4 | Qeyri-maddi aktivlər | | 440 262,88 | 405 768,57 |
| A5 | Təxirə salınmış vergi aktivləri | | | |
| A6 | Uzunmüddətli debitor borcları | | | |
| A7 | Uzunmüddətli maliyyə aktivləri: | | 0,00 | 0,00 |
| A8 | dövlət qiymətli kağızları | | | |
| A9 | qeyri-dövlət qiymətli kağızları | | | |
| A10 | sair maliyyə aktivləri | | | |
| A11 | İştrak payı metodu ilə uçota alınmış investisiyalar | | 0,00 | 500,00 |
| A12 | Təsisçi və ya səhmdarlarla hesablaşmalar | | | |
| A13 | Sair aktivlər | | 400 000,00 | 400 000,00 |
| B1 | *Cəmi uzunmüddətli aktivlər* | | **3 103 430,18** | **1 194 210,60** |
| | II . QISAMÜDDƏTLİ AKTİVLƏR | | | |
| C1 | Ehtiyatlar | | 69 643,38 | 69 643,38 |
| C2 | Debitor borcları: | | **1 368 388,27** | **3 311 803,44** |
| C3 | birbaşa sığorta üzrə | | 741 401,79 | 2 526 125,12 |
| C4 | təkrarsığorta əməliyyatları üzrə : | | **140 861,93** | **0,00** |
| C5 | - təkrarsığortaçı üzrə | | 140 861,93 | 0,00 |
| C6 | - təkrarsığortalı üzrə | | 0,00 | 0,00 |
| C7 | asılı təşkilatlar üzrə | | | 3 500,00 |
| C8 | büdcə üzrə | | 122 293,66 | 120 065,76 |
| C9 | iddia tələbləri üzrə | | 208 309,23 | 514 824,72 |
| C10 | işçi heyəti üzrə | | 33 494,00 | 20 456,05 |
| C11 | sığortalılara verilən borclar üzrə | | | |
| C12 | sair debitorlar | | 122 027,66 | 126 831,79 |
| C13 | Pul vəsaitləri və onların ekvivalentləri: | | **205 076,27** | **868 683,61** |
| C14 | kassa | | 2 986,06 | 515,06 |
| C15 | hesablaşma hesabı | | 51 840,91 | 42 141,78 |
| C16 | valyuta hesabı | | 150 249,30 | 486 026,77 |
| C17 | depozit hesablar | | | 340 000,00 |
| C18 | sair pul vəsaitləri | | | |
| C19 | Qısamüddətli maliyyə aktivləri: | | | |
| C20 | dövlət qiymətli kağızları | | | |
| C21 | qeyri-dövlət qiymətli kağızları | | | |
| C22 | sair maliyyə aktivləri | | | |
| C23 | Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı: | | **1 003 270,74** | **2 305 761,49** |
| C24 | həyat sığortası sahəsi üzrə | | | |
| C25 | qeyri-həyat sığortası sahəsi üzrə | | 1 003 270,74 | 2 305 761,49 |
| C26 | Sair qısamüddətli aktivlər: | | **51 409,18** | **45 322,69** |
| C27 | gələcək hesabat dövrlərinin xərcləri | | 6 650,09 | 4 885,50 |
| C28 | verilmiş avanslar | | | |
| C29 | təhtəl hesablar | | 44 759,09 | 40 437,19 |
| C30 | Sair aktivlər | | **9 525 160,17** | **9 525 602,17** |
| D1 | *Cəmi qısamüddətli aktivlər* | | 12 222 948,01 | 16 126 816,78 |
| E1 | CƏMİ AKTİVLƏR | | 15 326 378,19 | 17 321 027,38 |

KERMUR AUDİT VƏ KONSALTİNQ

№ 19/08

"18" mart 2019-cu il

**MÜSTƏQIL AUDITOR HESABATI**

**Rəy**

Mən ASC "Standard İnsurance" Sığorta Şirkəti (VÖEN 1300115641) 31 dekabr 2018-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışam.

Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2018-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün və ədalətli təsəvvür yaradır.

**Rəy üçün əsaslar**

Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyiləm və mən digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının BAS (Beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

Azərbaycan, Bakı şəhəri, AZ 1022, Nəsimi rayonu, Səməd Vurğun küç 81.
Tel.: (+99412) 596 65 63; Faks: (+99412) 596 65 61
E-mail: office@kermur.com
Web site: www.kermur.com

81 Samad Vurgun street, Nasimi district, AZ 1022, Baku, Azerbaijan
Tel.: (+99412) 596 65 63; Fax: (+99412) 596 65 61
E-mail: office@kermur.com
Web site: www.kermur.com

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Mənim məqsədim maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

**"KERMUR Audit və Konsalting" MMC-nin direktoru, auditor:** **A.İ.Vahabov**

Ardı 15-ci səh.

# Azərbaycan və Gürcüstan gömrükçüləri birgə regional layihələri müzakirə etdi



**Tiflisdə Azərbaycan və Gürcüstan gömrük xidmətlərinin nümayəndələri arasında işçi görüş keçirilib.**

DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən "Bakı-Xəbər"ə verilən məlumata görə,

Azərbaycan tərəfdən Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-mayoru Cavad Qasımov və Beynəlxalq Əməkdaşlıq İdarəsinin rəisi Dilavər Fərzəliyevin iştirak etdiyi görüşdə Gürcüstanı Gəlirlər Xidmətinin Baş direktoru Vaxtanq Laşkaradze, Gömrük Departamentinin rəhbəri Mamuka Djanqulaşvili və müavini Kaxaber Baramia təmsil edib.

Görüşdə Avropa İttifaqının Yeni Kompüterləşdirilmiş Tranzit Sisteminin (NCTS) tətbiqi ilə bağlı Azərbaycan və Gürcüstanın birgə regional layihəsi müzakirə olunub, tərəflər NCTS-yə üzvlük istiqamətində görülən işlər barədə məlumat verib.

Eyni zamanda, Azərbaycan və Gürcüstan arasında həyata keçirilən dəmir yolu ilə daşımalarda mövcud vəziyyət, perspektiv və qeyd olunan daşımalar zamanı gömrük məsələləri barədə fikir mübadiləsi aparılıb. İki ölkə arasında imzalanan müvafiq sazişlərə əsasən, Azərbaycan ərazisindən dəmir yolu vasitəsilə neft məhsullarının tranzit daşımaları zamanı gömrük orqanları tərəfindən tələb edilən zəmanət məktubunun elektron şəkildə təqdim edilməsi müzakirə edilib və bunun tranzit daşımaların sürətləndirilməsinə töhfə verəcəyi vurğulanıb.

Görüşdə Azərbaycan-Gürcüstan dövlət sərhədində yeni "İpək Yolu - Abreshumis Gza" birgə gömrük-sərhəd buraxılış məntəqəsinin inşasının layihələndirilməsi, həmçinin birgə gömrük nəzarətinin təşkilinə dair məsələlər də müzakirə mövzusu olub. Bununla əlaqədar saziş layihəsinin imzalanmasından sonra sazişin müddəalarına əsasən zəruri mexanizmin icrası üçün müvafiq qaydaların hazırlanması barədə razılıq əldə edilib. Gürcüstan gömrük xidmətinin nümayəndələri layihənin icrasına Asiya İnkişaf Bankının maliyyə dəstəyi göstərəcəyini bildirib.

Daha sonra görüşdə Bakı-Tiflis-Qars dəmir yolu ilə daşımalarda yüklərin gömrük rəsmiləşdirilməsi və gömrük nəzarətinə dair fikir mübadiləsi aparılıb, bu il aprelin sonunda Azərbaycan, Gürcüstan və Türkiyə gömrük xidmətlərinin nümayəndələri arasında işçi görüşün keçirilməsi razılaşdırılıb.

***Baki-xeber.com***

**Deyirlər ki, riyaziyyat bütün elmlərin açarıdır. Əslində, bu həqiqətən də belədir. O da faktdır ki, dəqiq elmlərin anası olan riyaziyyat uşaqlarda zehni inkişaf etdirir, onların beyinlərini çalışdırır, yaddaşlarını möhkəmlədir. Vaxtaşırı olaraq respublikamızda müxtəlif qurumların təşkilatçılığı ilə riyaziyyat olimpiadaları, müsabiqələri keçirilir.**



# Azərbaycanda ilk - riyaziyyat üzrə beynəlxalq olimpiada...

## *Tamilla Həsənova: "Məktəblilər arasında beynəlxalq riyaziyyat müsabiqəsinin keçirilməsi riyaziyyat elminin inkişafına yol açan amillərdən biridir"*

Bu müsabiqələr əsasən respublika əhəmiyyətli olduğu üçün, burada yalnız respublikamızın məktəbliləri iştirak edə bilir.

Azərbaycanda ilk dəfə beynəlxalq riyaziyyat müsabiqəsi keçiriləcək. Bu il üçün pilot olaraq keçirilməsi nəzərdə tutulan KBRM Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin təşəbbüsü və mərkəzi Fransa olan Sərhədsiz Kenquru Assosiasiyasının razılığı ilə keçiriləcək müsabiqədə əsas məqsəd istedadlı şagirdlərin aşkar edilməsi, onların elmi potensiallarının inkişaf etdirilməsi və şagirdlərdə fənlərə olan marağın artırılmasına nail olmaqdan ibarətdir. "Öyrənək-əylənək və həll edək" şüarı ilə keçirilən bu müsabiqə müxtəlif səviyyələrdə riyazi biliyə malik olan III-X sinif şagirdlərini əhatə edir və şagirdlərin iştirakı qeydiyyat haqqını ödəməklə könüllülük prinsipi daşıyır.

Müsabiqənin Azərbaycan, rus və ingilis dillərində olmaqla üç fərqli dildə keçirilməsi planlaşdırılır.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Riyaziyyat və Mexanika İnstitutunun elmi katibi, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru Tamilla Həsənova "Bakı-Xəbər"ə bildirdi ki, ümumiyyətlə, riyaziyyatla bağlı keçirilən həm yerli, həm də beynəlxalq səviyyəli riyaziyyat olimpiadalarının və müsabiqələrinin böyük əhəmiyyəti var. O hesab edir ki, bu müsabiqələr nəticəsində Azərbaycanda yeni riyaziyyatçılar nəslinin yetişməsinə nail olmaq mümkündür. "Uşaqlar və yeniyetmələr arasında riyaziyyata maraq oyatmaq vacib məsələlərdən biridir. Şagirdlərə riyaziyyatın sevdirilməsi, onların bu sahədə olan bilik və bacarığının üzə çıxarılması baxımından riyaziyyat müsabiqələrinin əhəmiyyəti danılmazdır. Ölkəmizdə ilk dəfə beynəlxalq riyaziyyat müsabiqəsinin keçirilməsinin yalnız müsbət tərəfi var. Bu müsabiqədə müxtəlif xarici ölkələrin şagirdləri ilə Azərbaycan məktəblilərinin birgə iştirakı çox böyük maraq doğurur".

*"Bu müsabiqədə müxtəlif xarici ölkələrin şagirdləri ilə Azərbaycan məktəblilərinin birgə iştirakı çox böyük maraq doğurur"*

Təmsil etdiyi elmi-tədqiqat institutu tərəfindən "Gənc riyaziyyatçılar məktəbi"nin yaradıldığını da qeyd edən T.Həsənovanın sözlərinə görə, bu məktəb də uşaq və gənclərdə riyaziyyata marağın formalaşmasında müstəsna rol oynayır.

"Biz onlar üçün mühazirələr oxuyuruq, sonra isə o mühazirələri "YouTube"yə qoyuruq. Hətta praktiki dərslərin şagirdlər tərəfindən aparılmasını təşkil edirik. Tez-tez müəllim və şagird heyəti ilə görüşlər keçiririk. Həm bizim məktəbin fəaliyyətinin, həm də beynəlxalq riyaziyyat müsabiqəsinin keçirilməsinin məqsədi riyaziyyatı lap uşaq yaşlarından şagirdlərə mənimsətmək və sevdirməkdir.

Məktəblilər arasında beynəlxalq riyaziyyat müsabiqəsinin keçirilməsi riyaziyyat elminin inkişafına yol açan amillərdən biridir. Bu olduqca əhəmiyyətlidir"-deyə T.Həsənova qeyd etdi.

***İradə SARIYEVA***

Əvvəli 14-cü səh.

| | KAPİTAL VƏ ÖHDƏLİKLƏR | Sətr kodu | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|---|---|
| | I. KAPİTAL | | | |
| F1 | **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | | 11 000 000,00 | 11 000 000,00 |
| F2 | **Emissiya gəliri** | | | |
| F3 | **Geri alınmış kapital (səhmlər)** | | | |
| F4 | **Kapital ehtiyatları:** | | | |
| F5 | yenidən qiymətləndirilmə üzrə ehtiyat | | | |
| F6 | digər kapital ehtiyatları | | | |
| F7 | **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | | -4 719 459,27 | -5 753 080,56 |
| F8 | Hesabat dövründə xalis mənfəət (zərər) | | 863 775,16 | -1 023 938,76 |
| F9 | Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər | | -1 887 453,57 | -9 682,53 |
| F10 | Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | -3 695 780,86 | -4 719 459,27 |
| F11 | Elan edilmiş dividendlər | | | |
| G1 | *Cəmi kapital* | | **6 280 540,73** | **5 246 919,44** |
| | II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR | | | |
| H1 | **Sığorta ehtiyatları:** | | **5 965 865,39** | **7 685 204,82** |
| H2 | Həyat sığortası sahəsi üzrə : | | | |
| H3 | Qeyri-həyat sığortası sahəsi üzrə: | | 5 965 865,39 | 7 685 204,82 |
| H4 | **Qarşısıalınma tədbirləri fondu** | | **38 515,00** | **41 389,10** |
| H5 | **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | | | |
| H6 | **Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər** | | | |
| H7 | **Təxirəsalınmış vergi öhdəlikləri** | | | |
| H8 | **Kreditor borcları :** | | 0,00 | 0,00 |
| H9 | əməyin ödənilməsi üzrə | | | |
| H10 | büdcə üzrə | | | |
| H11 | sosial sığorta və təminat üzrə | | | |
| H12 | digər məcburi ödənişlər üzrə | | | |
| H13 | asılı təşkilatlar üzrə | | | |
| H14 | sair kreditorlar | | | |
| H15 | **Sair uzunmüddətli öhdəliklər:** | | 0,00 | 0,00 |
| H16 | gələcək hesabat dövrünün gəlirləri | | | 0,00 |
| H17 | alınmış avanslar | | | 0,00 |
| H18 | **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | | **1 415 150,18** | **3 114 717,81** |
| H19 | təkrarsığortaçı üzrə | | 1 405 141,78 | 3 114 717,81 |
| H20 | təkrarsığortalı üzrə | | 10 008,40 | 0,00 |
| H21 | **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | | |
| H22 | **Sair öhdəliklər** | | | |
| I1 | *Cəmi uzunmüddətli öhdəliklər* | | **7 419 530,57** | **10 841 311,73** |
| | III . QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR | | **1 433 793,99** | **734 426,61** |
| J1 | **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | | | |
| J2 | **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | | | |
| J3 | **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | | | |
| J4 | **Kreditor borcları:** | | **1 433 793,99** | **734 426,61** |
| J5 | əməyin ödənilməsi üzrə | | 7 601,82 | 12 014,62 |
| J6 | büdcə üzrə | | 0,00 | 0,00 |
| J7 | sosial sığorta və təminat üzrə | | 29 845,35 | 17 353,63 |
| J8 | digər məcburi ödənişlər üzrə | | 0,00 | 94 731,77 |
| J9 | asılı təşkilatlar üzrə | | 0,00 | 0,00 |
| J10 | sair kreditorlar | | 1 396 346,82 | 610 326,59 |
| J11 | **Sair qısamüddətli öhdəliklər:** | | **151 114,30** | **496 650,58** |
| J12 | gələcək hesabat dövrünün gəlirləri | | 151 114,30 | 496 650,58 |
| J13 | alınmış avanslar | | 0,00 | 0,00 |
| J14 | **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | 0,00 | 0,00 |
| J15 | **Sair öhdəliklər** | | **41 398,60** | **1 719,02** |
| K1 | *Cəmi qısamüddətli öhdəliklər* | | **1 626 306,89** | **1 232 796,21** |
| L1 | *CƏMİ ÖHDƏLİKLƏR* | | 9 045 837,46 | 12 074 107,94 |
| M1 | CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR | | 15 326 378,19 | 17 321 027,38 |
| N1 | Qeyd : Ödənilməsinə zəmanət verilmiş məbləğlərin cəmi* | | | |

* Bu sətrlər üzrə məlumatlar balansa daxil edilmir.

**Forma № 2S**

Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin 5 dekabr 2008-ci il İ-125 №-li əmri ilə təsdiq edilmişdir,

**SIĞORTAÇININ (TƏKRARSIĞORTAÇININ) və HÜQUQİ ŞƏXS SIĞORTA BROKERİNİN MƏNFƏƏT və ZƏRƏRİ HAQQINDA HESABAT (rüblük və illik)**

Sığortaçının (təkrarsığortaçının ) və ya sığorta brokerinin adı: Standard Insurance

Hesabat dövrü ____________ **01.01.2019 ил** ____________

*ilin əvvəlindən artan yekunla*

| | Gəlirlər | Məbləğ |
|---|---|---|
| A1 | **Əsas əməliyyat gəliri:** | 13 178 999,80 |
| A2 | birbaşa sığorta üzrə sığorta haqları | 12 979 664,31 |
| A3 | təkrarsığorta üzrə təkrarsığorta haqları | 0,00 |
| A4 | sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | 21 571,07 |
| A5 | təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə | 177 764,42 |
| A6 | **Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)** | -416 848,68 |
| A7 | **İnvestisiya gəlirləri üzrə** | 2 568,43 |
| A8 | **Subroqasiya gəlirləri** | 45 308,38 |
| A9 | **Sair gəlirlər** | 217 127,07 |
| B1 | CƏMİ GƏLİRLƏR | **13 027 155,00** |
| | **Xərclər** | |
| C1 | **Əsas əməliyyat xərcləri:** | 8 330 952,03 |
| C2 | sığorta ödənişləri və sığorta məbləğləri üzrə | 3 741 341,12 |
| C3 | qaytarılan sığorta haqları üzrə | 59 031,66 |
| C4 | tənzimləmə xərcləri | 7 433,02 |
| C5 | təkrarsığortaya verilmiş sığorta haqları üzrə | 4 382 326,14 |
| C6 | qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | 2 874,10 |
| C7 | sığorta fəaliyyəti üzrə sair xərclər | 137 945,99 |
| C8 | **İşlərin aparılması xərcləri** | **5 503 551,00** |
| C9 | **Sair xərclər** | 216 590,73 |
| D1 | CƏMİ XƏRCLƏR | **14 051 093,76** |
| E1 | **Maliyyə mənfəəti (zərəri)** | -1 023 938,76 |
| E2 | **Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi** | |
| E3 | **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | -1 023 938,76 |
| E4 | **Mənfəət vergisi** | 0,00 |
| E5 | **Hesabat dövründə xalis mənfəət (zərər)** | -1 023 938,76 |

№ 55 (3953) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

29 MART 2019-cu il

# Robotlar hakimlik dә edәcәk...



**Estoniyada süni intellektlә işlәyәn robot hakim yaradılacaq. Belә ki, ölkәnin Әdliyyә Nazirliyi mәlumatların toplanılması üzrә baş mütәxәssisә belә robotun yaradılması üçün müraciәt edib.**

"ICTnews" bildirir ki, robot hakim yalnız 7 min avroyadәk olan kiçik iddialar üzrә mübahisәlәri hәll edәcәk. Mәhkәmә sistemindә süni intellektin tәtbiqinin dövlәt aparatının yükünü xeyli azaltmağa imkan verәcәyi gözlәnilir. Mәlumata görә, bu il başlayacaq test rejimindә kontraktlarla bağlı mübahisәlәrә baxılacaq. Hәr iki tәrәf bütün lazımi sәnәdlәri vә digәr müvafiq informasiyanı yüklәdikdәn sonra süni intellekt qәrarlar qәbul edәcәk. Hәmin qәrarlardan isә sonradan mәhkәmәyә şikayәtlә müraciәt etmәk mümkün olacaq. Hüquqşünas vә hakimlәrin rәyin alındıqdan sonra sistemә müvafiq düzәlişlәrin edilәcәyi planlaşdırılır.

## "Azercell"in dәstәk olduğu "Dataforest" startapı "İnformasiya Cәmiyyәti üzrә Dünya Sammiti"nin çempionu seçilib

**"Azercell Telekom" MMC-nin Barama İnnovasiya vә Sahibkarlıq Mәrkәzinin dәstәk olduğu startaplar beynәlxalq miqyaslı müsabiqәlәrdә ölkәmizi uğurla tәmsil etmәyә davam edirlәr.**

Bu dәfә mәrkәzin gәnc rezidentlәrindәn "Dataforest" böyük uğura imza ataraq, "İKT tәtbiqi: Hәyatın bütün aspektlәrindә fayda - E-biznes" kateqoriyasında (Action Line 7. ICT Application: Benefits in all aspects of life - E-business) "İnformasiya Cәmiyyәti üzrә Dünya Sammiti"nin (WSIS) çempionu seçilib. İlk dәfә 2012-ci ildә keçirilәn "WSIS" rәqәmsal sahәlәrdә mövcud trendlәrin, yeniliklәrin vә çәtinliklәrin müzakirә olunduğu әn iri toplantı hesab olunur.

Qeyd edәk ki, "Dataforest" "WSIS"Pay Sahiblәri cәmiyyәti tәrәfindәn tәsdiqlәnәn 1064 layihәdәn biri idi. 2019-cu il, 8-12 aprel tarixlәri әrzindә İsveçrәnin Cenevrә şәhәrindә keçirilәcәk "WSIS 2019 Forumu"nda "WSIS"cәmiyyәtinin 2 milyondan artıq sәs toplayan 18 qalib vә72 çempion layihәsinin mükafatlandırılması gözlәnir.

Mәlumat üçün bildirәk ki, "Dataforest" dünyanın hәr yerindәn öz mәlumatlarını yüklәmәk vә paylaşmaqla asudә vaxtlarında pul qazanmaq istәyәn insanları, elәcә dә şirkәtlәri birlәşdirәn unikal bir platformadır. "Dataforest"-müxtәlif mәlumatı özündә cәmlәyәn keyfiyyәtli, sürәtli vә rahat bir mәnbәdir. 2018-ci ildә "MİT Qlobal Startap Laboratoriyası"nda yaranan startap ölkәmizdә dә qısa müddәt әrzindә böyük nailiyyәtlәr qazana bilib. Belә ki, "MİT GSL Azerbaijan Demoday"inin qalibi olan layihә, "AWITA 2018"dә "İlin startapı" kimi mükafatlandırılıb.

Qeyd etmәk istәrdik ki, bu il fәaliyyәtinin 10 illiyini qeyd edәcәk Barama İnnovasiya vә Sahibkarlıq Mәrkәzi, "Azercell Telekom" MMC vә PAŞA Bankın dәstәyilә әsasәn informasiya texnologiyaları sahәsinә aid layihәlәrin vә startapların şirkәtlәşmәsinә kömәk edir. Ölkәnin ilk biznes inkubatoru olan mәrkәz 20-yә yaxın uğurlu layihәyә evsahibliyi edib.

Daha әtraflı mәlumat üçün news@mcs.az ünvanına müraciәt edә bilәrsiniz.

## Elan

Şәki rayonu, Baş Layısqı kәnd sakini Osmanov Vaqif Әlәşrәf oğlunun adına verilmiş 403013002743 saylı daşınmaz әmlakın Dövlәt reyestrindәn çıxarış sәnәdi itdiyi üçün etibarsız sayılır.

Sәmәdli Baba Akif oğluna Bakı Mühәndislik Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Zülfüqarova Şölә Sәrkәr qızına Azәrbaycan Dövlәt Rәssamlıq Akademiyası tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Hüseynova Dilşad Hadi qızının adına, Göygöl rayonu, Çaykәnd kәndindә torpağın mülkiyyәtә verilmәsinә dair JN-500F kod 50800058 nömrәli şәhadәtnamә itdiyi üçün etibarsız sayılır.

Abşeron rayonu, Xırdalan şәhәrindә yerlәşәn "Xalq City" MMC-yә mәxsus әmlak pay haqqı müqavilәsi vә әlavәsi (№ XC-0142) itdiyi üçün etibarsız sayılır.

Qәdışov Sәbuhi Hacıvәli oğlunun adına, Bakı şәhәri, Xәzәr rayonu, Mәrdәkan qәsәbәsindә yerlәşәn 12 sot torpaq sahәsinin mülkiyyәtә verilmәsinә dair şәhadәtnamә (JN 20376) itdiyi üçün etibarsız sayılır.

Qәdışova Dilşad Rza qızının adına, Bakı şәhәri, Xәzәr rayonu, Mәrdәkan qәsәbәsindә yerlәşәn 12 sot torpaq sahәsinin mülkiyyәtә verilmәsinә dair şәhadәtnamә (JN 20403) itdiyi üçün etibarsız sayılır.

Hәmidov Rәfail Әlisurәt oğlunun adına, Bakı şәhәri, Sabunçu rayonu, Lәhiş bağ massivindә yerlәşәn № 3201 bağın A № 420085 torpaq sahәsinin plan vә ölçüsü itdiyi üçün etibarsız sayılır.

## TӘBRİK!



Baharın müjdәsisәn,
Könlümün şәn sәsisәn.
Yaşamaq hәvәsisәn,
Könlü gözәl Sofiya.

Ruhun çiçәk tәk tәmiz,
Qәlbin çağlayan dәniz.
Ay gülcamal, aybәniz,
Şeir-qәzәl Sofiya.

Bircә yaşlı mәlәksәn,
Bir sehirli çiçәksәn.
Sabahsan, gәlәcәksәn,
Ay ilk, әzәl Sofiya.

Bu gün Әhmәdsoy Sofiya Rüfәt qızının 1 yaşı tamam olur. Sofiyanı doğum günü münasibәtilә atası, anası, babaları vә nәnәlәri, bütün onu sevәnlәr ürәkdәn tәbrik edirlәr.

Әziz Sofiya balamız, hәr zaman xoşbәxt olasan! 1 yaşın mübarәk!





**Qoç** - Әylәncә vә istirahәt zamanı deyil. Sәhәr saatlarından etibarәn vaxtınızı işә sәrf edin. Ay vә Tefeyanın münasibәtlәri sizdәn müstәqil, tәkbaşına iş tәlәb edir. Bu gün real olaraq faydalı iş görün, nәticәni sәbatlı edin.



**Buğa** - Fobos vә Deymos bu gün sizdәn ifrat tәnqidә varmamağı tәlәb edlir. Hәtta, dәyişikliklәrә ciddi ehtiyac duyulduğu görünsә dә, soyuqqanlı olun. İşdә hәmkarlarınız, evdә isә yaxınlarınızın qәlbini sındırmadan situasiyaya tәsir imkanlarını arayın.



**Әkizlәr** - Yaxın әtrafınız sizdәn yeni öhdәliklәrin yerinә yetirlmәsini istәyә bilәr. Sәlahiyyәtlәrinizin bir qismini istәyәcәklәr, sizdәn әsla sevmәdiyiniz rolda olmağınızı xahiş edәcәklәr.



**Xәrçәng** - Bu gün ön planda iş vә yalnız iş norlmalıdır. Әsas diqqәti detallara, tәfәrrüatlara, xırdalıqlara ayırın. Pәhriz, orqanizmdәki problemlәrin aradan qaldırılması, emosiyaların sakitlәşdirilmәsi üçün әlverişli gündür.



**Şir** - Әmәkdaşlığı dәyәrli saydığınız insanlara qarşı bu gün tәlәb vә iddiaların sayını artırmayın. Problemlәrin işdәki çatışmazlıqları aşkarladıqları müstәvilәrdәki qәrarlar radikal ola bilәr.



**Qız** - Bu günün tәmayüllәrini hiss edin, hәr şeyin qaydasında olduğunu yoxlayın. Vәdlәrinizi yerinә yetirin, çünki sizinlә bağlı gözlәntilәr var. Yaxınlarınız, dәyәr verdiyiniz insanlar vә sevgilinizlә münasibәtlәrdә güzәştә getmәyi bacarın.



**Tәrәzi** - Amalteya vә Haron bu gün sizdәn özünüzә qarşı tәlәbkarlığı azaltmağı, yaxın әtrafınızdakı insanlarla münasibәtlәrdә daha soyuqqanlı vә hәlim olmağı tәlәb edir. Görmәli olduğunuz işlәrin siyahısı böyüyә bilәr.



**Әqrәb** - Günün şәrtlәri vә yaşanan hadisәlәrlә barışın, bәzi mәqamlara sәrt etiraz etmәyin. Uğursuzluq zolağının davam etmәsindәn narahat olmayın. Hansısa nәsnәlәri әldә etmәk üçün bәzi mәqamlardan imtina etmәk gәrәkdir.



**Oxatan** - Bu gün münaqişә vә mübahisәlәrdә iştirak etmәyin, kiminsә tәrәfini tutub aqressiv davranmayın. Tefeya vә Umbrielin arasındakı münasibәtlәr sizdәn tәmkinli davranmağı, mühüm işi vә ya layihәni sakit planlaşdırmağı tәlәb edir.



**Oğlaq** - Günәş, Pluton vә Saturn arasındakı münasibәtlәr bu gün qәtiyyәtinizi bir qәdәr azalda bilәr. Müvazinәtin, onsuz da, zәif olduğu situasiyalarda kimәsә tәzyiq göstәrmәk fikrinә düşmәyin.



**Dolça** - Tam qüvvә vә sәy ilә çalışın, günün tәlәblәrini qulaqardına vurmayın. Kiminsә sizә öz iradәsini tәlqin etmәyә cәhd göstәrmәsini istәmirsinizsә, büstübün mәşğul ola bilәcәyiniz iş tapın.



**Balıqlar** - Yerinә yetirmәdiyiniz vәdlәri bu gün sizә xatırladaraq әlavә iş vә yük yarada bilәrlәr. Heç bir motivi olmayan depressiya istisna deyil. Ay vә İonun münasibәtlәri sizdәn narazılığı, ruh düşkünlüyünü işlә yatırmağı tәlәb edir.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Kolumbiyada daşqın qәdim mәzarları üzә çıxardı

**Kolumbiyanın And dağları ilә әhatәlәnmiş San-Bernardo şәhәrindәn tapılan qazıntılar dünyanı heyrәtә gәtirib. Әsrarәngiz tapıntılar qarşısında alimlәr aciz qalıb. "Milli.Az" xәbәr verir ki, illәr öncә әrazidә baş vermiş daşqın qәdim mәzarları su üzünә çıxardıb.**

Qәribәdir ki, insan skeletlәri vә geyimlәri әsirlәr boyu torpaq altda qalsa da, nә әzilib, nә dә ovulub. Arxeoloqlar bildirir ki, bu cәsәdlәrin mumiyalanmasında elmә vә tibbә mәlum olmayan çox tәbii vasitәdәn istifadә edilib. Odur ki, cәsәdlәr olduğu kimi qorunub. Sәbәblәrdәn biri dә әrazidә yaşayan insanların qida rasionu ilә bağlıdır. Belә ki, yerli әhali quatila vә balu kimi unikal meyvәlәrlә qidalanırlar. Bundan әlavә, coğrafi şәrait dә böyük әhәmiyyәt kәsb edir. Hazırda cәsәdlәr muzeydә saxlanılır vә tәrkibindә heç bir dәyişiklik baş vermәdiyi qeyd olunur.

*Hazırladı: Ramil QULİYEV*

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*
Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*
e-mail: azer22@mail.ru

**Reyestr № 0106-P219-45846**
Qәzet hәftәdә 5 dәfә çıxır.
(Bazar vә bazar ertәsindәn başqa).
«BZ»-dә çap olunur.
Sifariş: №2514 Tiraj: 5200

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.